

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

**Ukraynalı deputat: "Yardıma görə Azərbaycan Prezidenti və xalqına minnətdarıq"**



3

# Hər şey inkişaf üçün, hər şey rifah üçün!



2

*Prezident İlham Əliyev dünən Cəlilabad və Füzuli rayonlarına, habelə Xocalı rayonunun Çanaqçı və Sığnaq kəndlərinə səfər edib*

SƏS

№ 127 (6810)

21 iyul 2023-cü il.
Qiyməti 60 qəpik

# Davam edən DİPLOMATİK MÜBARİZƏ



4

**XİN bəyanat yaydı: "Ermənistan sülh prosesinə maneçilik törədən səylərdən əl çəkməlidir!"**



3

**148-dən ötən 365-lər...**




8

**Bir Fransa, bir Ermənistan, bir də Tofiq Yaqublu**



12

## Mediamızda əsaslı islahatların vaxtıdır: nəyi, nə üçün və necə dəyişməli?



15

**Alimlər: çılpaq yatmaq daha faydalıdır**



16

# Hər şey inkişaf üçün, hər şey rifah üçün!

## *Prezident İlham Əliyev dünən Cəlilabad və Füzuli rayonlarına, habelə Xocalı rayonunun Çanaqçı və Sığnaq kəndlərinə səfər edib*

***Prezident İlham Əliyev iyulun 20-də Cəlilabad rayonunda olub. Dövlətimizin başçısı Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin açılışında iştirak edib. Elm və təhsil naziri Emin Əmrullayev Prezident İlham Əliyevə mərkəzdə yaradılan şərait barədə məlumat verdi.***












Qeyd edək ki, ölkəmizdə əmək bazarının tələblərinə uyğun kadr hazırlığında peşə təhsilinin rolu artır. Bu sahəyə göstərilən diqqət həm də müasir infrastrukturun formalaşdırılması ilə müşayiət olunur. Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzi də regional inkişaf proqramından irəli gələrək bölgədə gənclərin peşə bacarıqlarına yiyələnməsinə yeni imkanlar yaradacaq.

Məlumat verildi ki, hazırda Azərbaycanda 98 peşə təhsil müəssisəsi var. Peşə təhsil mərkəzlərinin sayı isə 14-dür. Ölkəmizdə 120 ixtisas üzrə 23 min 600 tələbə peşə təhsili alır. Son üç ildə peşə qəbulu üzrə göstəricilər 30 faiz artaraq, keçən il tələbələrin sayı 19 mini ötüb. Bundan başqa, 2022-2023-cü tədris ilində 5 regionda fəaliyyət göstərən 8 peşə təhsil müəssisəsində yüksək texniki peşə təhsil səviyyəsi üzrə də tələbə qəbulu aparılıb. Hazırda respublikada 1466 tələbə yüksək texniki peşə təhsili alır. Bu təhsil səviyyəsi üzrə tələbələrin sayının 2026-cı ilə qədər 9200-ə çatdırılması planlaşdırılır.

Bildirildi ki, hazırda Lənkəran Peşə Liseyi, Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi üçün binalar tikilir. Mingəçevir Peşə Təhsil Mərkəzinin binasının tikintisi isə başlamaq üzrədir. Eləcə də Füzuli Peşə Liseyi, Sənaye və Yüksək Texnologiyalar üzrə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi, Tovuz, Qax və Quba Peşə liseylərinin binalarının layihələndirilməsi aparılır. Qarabağda Kəlbəcər və Laçın peşə məktəblərinin tikintisi planlaşdırılır. Böyük Qayıdış Proqramı çərçivəsində ümumilikdə 8 peşə təhsil müəssisəsi tikilib istifadəyə veriləcək.

Dövlətimizin başçısı Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzində yaradılan şəraitlə tanış oldu. Ən müasir infrastruktur, maddi-texniki baza ilə təchiz olunan mərkəzin ərazisində 25 sinif otağı, 3 laboratoriya, 13 emalatxana, informatika kabineti, STEAM Mərkəzi, praktiki məşğələ otağı, kitabxana, 252 yerlik akt zalı, 128 yerlik yeməkxana, idman zalları və meydançaları, avtotəmir binası, maldarlıq ferması və digər köməkçi binalar yerləşir.

Peşə Təhsil Mərkəzində qənnadıçı, şirniyyatçı, dərzi, kompüterlərin təmiri və xidməti üzrə texnik, mühasibat uçotu, qrafik dizayner, veb-dizayn və proqram təminatı, çilingər-santexnik, geniş profilli traktorçu-maşinist, elektrik montyoru, bərbər-vizajist-manikürçü, avtomobillərin təmiri çilingəri, avtomobil sürücüsü, mebel ustası istiqamətləri üzrə mütəxəssis hazırlığı aparılacaq.

Eyni zamanda, kənd təsərrüfatı mütəxəssislərinə artan tələbatı nəzərə alaraq bu sahə üzrə tədrisə xüsusi diqqət yetirilib. Müəssisədə kənd təsərrüfatı məhsullarının istehsalı üzrə fermer, bitkiçilik, heyvandarlıq və baytarlıq üzrə mütəxəssislər də hazırlanacaq.

Qeyd edək ki, son illərdə Azərbaycanda peşə təhsilinin inkişafı istiqamətində əhəmiyyətli addımlar atılıb. Prezident İlham Əliyevin 2016-cı il 20 aprel tarixli Fərmanına əsasən, Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması, peşə təhsilinin yeni çağırışlara uyğunlaşdırılması, peşə təhsil müəssisələrinin rolunun və statusunun yüksəldilməsi bu sahəyə xüsusi diqqətin təzahürüdür.

Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzinin istifadəyə verilməsi bölgələrdə gənclərin yeni tələblərə uyğun bilik və bacarıqlara yiyələnməsinə, eləcə də məşğulluq məsələlərinin həllinə xidmət edəcək.

Azərbaycan Prezidenti İlham Əliyev dünən Füzuli rayonunda olub. Dövlətimizin başçısı 1-ci texniki dərəcəli Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun Füzuli Beynəlxalq Hava Limanına qədər olan 27 kilometrlik hissəsinin tikintisi ilə tanış olub. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun layihələndirilməsi və tikintisi sürətlə davam etdirilir. Mövcud yolun uzunluğu 101, yeni yolun uzunluğu isə 81,7 kilometrdir. Yolun Tuğ dairəsinədək olan 48 kilometrlik hissəsi altı, 33,7 kilometrlik hissəsi isə dörd hərəkət zolağından ibarət olacaq.

Yolun baxış keçirilən 27 kilometrlik hissəsində əsas infrastruktur işləri tam icra olunub. Ümumilikdə Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisinin 50 faizi tamamlanıb. Yolboyu müxtəlif diametrli 137 suötürücü boru, 30 yeraltı keçid, 8 körpü, 7 tunel və 9 viaduk inşa edilir. Körpülərin ümumi uzunluğu 984, viadukların uzunluğu isə 2090 metrdir.

Məlumat verildi ki, layihə üzrə tikintisi nəzərdə tutulmuş doqquz viadukun səkkizində hazırda inşaat işləri davam etdirilir. Viadukların üçünün tikintisi zamanı Azərbaycanda ilk dəfə olaraq aşırım qəliblərin üfüqi sürüşdürülməsi üsulu ilə betonlama işləri yerinə yetirilir. Bundan başqa, Zəfər yolunun Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yoluna birləşən hissəsində yol qovşağının tikintisi işləri də uğurla icra olunur. Prezident İlham Əliyev İyulun 20-də həmçinin Xocalı rayonunun işğaldan azad edilmiş Çanaqçı və Sığnaq kəndlərində də olub.

# XİN bəyanat yaydı: "Ermənistan sülh prosesinə maneçilik törədən səylərdən əl çəkməlidir!"

***Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistanın baş naziri Nikol Paşinyanın iyulun 20-də hökumətin iclası zamanı çıxışında səsləndirdiyi qərəzli fikirlərlə bağlı bəyanat yayıb. Bəyanatda deyilir ki, Brüsseldə liderlər səviyyəsində keçirilmiş görüşə istinadən Laçın yolu ilə bağlı son 8 ay ərzində təkrarladıqları iddianı bir daha xüsusi vurğulaması Ermənistan tərəfinin bu məsələdən siyasi məqsədləri üçün istifadə etməklə yanaşı, son zamanlar irəliləməkdə olan sülh müqaviləsi danışıqlarına maneçilik törətmək niyyətini nümayiş etdirir.***



"Bildirilib ki, Vətən müharibəsindən sonra Laçın yolunda Ermənistan tərəfindən aparılan qeyri-qanuni fəaliyyət sübut olunaraq, bu fəaliyyətin dayandırılmasına Azərbaycan tərəfindən çağırışlar edildiyi hər kəsə məlumdur. Bu fəaliyyətə məhəl qoyulmaması nəticəsində Azərbaycan tərəfi beynəlxalq hüququn norma və prinsipləri, eləcə də Azərbaycan qanunvericiliyi çərçivəsində Laçın sərhəd-buraxılış məntəqəsini yaradaraq son bir neçə ay ərzində həm yüklərin, həm də erməni sakinlərin şəffaf və tənzimlənən qaydada keçidini təmin edib. Bu xüsusda, məntəqənin mövcudluğunun yolun bağlanması kimi təqdim edilməsi tamamilə yanlış yanaşmadır. Hətta Beynəlxalq Ədalət Məhkəməsi 6 iyul tarixli qərarı ilə Ermənistan tərəfinin məntəqənin aradan qaldırılması ilə bağlı müraciətini yekdilliklə rədd edərək, bu iddianın əsassız olduğunu təsdiqlədiyi məlumdur. Ermənistan tərəfinin 15 iyun tarixində məntəqəni atəşə tutması, Azərbaycan sərhədçisini yaralaması, qaçaqmalçılıq cəhdləri etməsi Ermənistanın son 30 ildə Azərbaycan ərazilərinə qarşı təcavüzü və qeyri-qanuni fəaliyyəti davam etdirmək niyyətini göstərib, bununla Laçın məntəqəsinin labüdlüyü bir daha təsdiqlənib."

zərbaycan XİN-in bəyanatında qeyd olunur ki, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Azərbaycan tərəfindən təklif olunan "Ağdam-Xankəndi" yolunun yüklərin daşınması üçün vacib olduğu fikrinə məhəl qoymayan Ermənistan tərəfinin hər vəchlə bu yoldan imtina etməsi bölgədə "gərgin humanitar vəziyyət" iddiasının əsassız olduğunu və Ermənistan Azərbaycan ərazisində qeyri-qanuni fəaliyyəti davam etdirmək niyyətini sübuta yetirir.

"Azərbaycanın bölgədə "etnik təmizləmə" həyata keçirmək istiqamətində addımlar atdığı barədə Ermənistan tərəfinin iddiası olduqca yanlış və təhlükəlidir. Azərbaycanlılara qarşı kütləvi qırğınlar və deportasiyalar həyata keçirən Ermənistandan fərqli olaraq, Azərbaycan heç zaman erməni sakinlərə qarşı etnik təmizləmə siyasəti həyata keçirməyib. Qarabağı Azərbaycan ərazisi kimi tanıyan Ermənistanın baş naziri erməni sakinlərin Azərbaycana reinteqrasiyasını təşviq etmək əvəzinə, dialoqun hansı formada həyata keçirilməsinə dair şərtlər irəli sürməsi, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı addım kimi qiymətləndirilir və qəbuledilməzdir.

Həmçinin vurğulanıb ki, Azərbaycan və Ermənistanın sərhədləri hansı çərçivədə delimitasiya etməsindən asılı olmayaraq, Ermənistanın erməni silahlı qüvvələri tam olaraq Azərbaycan ərazisindən çıxarılmaq öhdəliyini yerinə yetirməməsi, əraziyə maliyyə dəstəyini davam etdirməsi və ərazi iddialarını müxtəlif məktublarda, bəyanatlarda və çıxışlarda vurğulaması şəraitində prosesin uğursuzluğa düçar olmasına çalışdığı hər kəsə aydındır və bu istiqamətdə manipulyasiyalar əsassızdır.

Azərbaycan tərəfi yuxarıda qeyd edilən istiqamətlər üzrə Ermənistan ilə sülh prosesinin təşəbbüskarı kimi bölgədə sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar olmasında maraqlıdır, eyni zamanda, danışıqlar prosesində fəal tərəfdir. Ermənistan tərəfi sülhdə maraqlıdırsa, sülh prosesinə maneçilik törədən səylərdən əl çəkməlidir."

# Ukraynalı deputat: "Yardıma görə Azərbaycan Prezidenti və xalqına minnətdarıq"

***Ukraynanın xalq deputatı, parlamentin energetika və kommunal xidmətlər məsələləri komitəsinin üzvü, enerji qənaəti və enerji səmərəliliyi alt komitəsinin sədri Sergey Naqornyak Ukraynaya göstərilən sistematik yardıma və dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə və Azərbaycan xalqına minnətdarlığını ifadə edib.***



AZƏRTAC xəbər verir ki, Sergey Naqornyak Ukrayna Böhran media mərkəzində "Ukrayna-Azərbaycan: Qlobal dünya nizamı çağırışları şəraitində strateji tərəfdaşlıq. Üçüncü dialoq" mövzusunda keçirilən dəyirmi masada deyib: "Məlum olub ki, Azərbaycan Prezidenti İlham Əliyev Ukraynaya humanitar yardım çərçivəsində elektrik avadanlıqları alınması və göndərilməsi üçün əlavə 7,6 milyon dollar ayrılmasına dair Sərəncam imzalayıb. Mən Rusiyanın tammiqyaslı müdaxiləsindən sonra daim hiss etdiyimiz yardımlara, sistematik dəstəyə görə Azərbaycan Prezidentinə və dost Azərbaycan xalqına təşəkkür etmək istəyirəm".

Deputat vurğulayıb ki, Azərbaycanın Ukraynanın ərazi bütövlüyünü dəstəkləməsi onlar üçün mühümdür, tammiqyaslı təcavüzün ilk günlərində isə böyük humanitar yardım paketi, o cümlədən dərmanlar və tibbi avadanlıq göndərilib. Həmin vaxtdan humanitar yardımlar sistematik xarakter alıb.

Sergey Naqornyak qeyd edib: "2022-2023-cü illərin qış mövsümü bizim üçün çox çətin olub. Azərbaycanın yardımı bu ağır dövrdə bizə kömək edib. İndi də Ukraynanın energetika sektoruna yardım ayrılıb. Bu, bizim üçün çox mühümdür, çünki enerji sistemini bərpa edərək qışa hazırlıq görürük".

# Davam edən DİPLOMATİK MÜBARİZƏ

***Bakı ilə İrəvan arasında danışıqlar prosesini izlədikdə bəlli olur ki, bu proses planlı şəkildə mürəkkəbləşdirilir və həmin prosesin mürəkkəbləşdirilməsində maraqlı qüvvələr var. Brüsseldə keçirilən altıncı görüşdən sonra bir daha tam çılpaqlığı ilə göründü ki, Ermənistan tərəfi hələ də danışıqlara, razılaşmalara uyğun davranış sərgiləmir. Qarabağda özünü elan etmiş hərbi birləşmənin qalıqlarının rəsmi İrəvan tərəfindən maliyyələşdirilməsi, Ermənistan silahlı dəstələrinə mənsub bölmələrin və silahlı qruplaşmalarının həmin ərazilərdə hələ də olması, görüşlər zamanı erməni diplomatların absurd fikirlər səsləndirmələri məsələnin mürəkkəbləşməsinə gətirib çıxaran səbəblərdəndir və bu səbəblərdən də diplomatik danışıqlar davamlı xarakter alır. Çünki qanunsuz müdaxilələr dayandırılmadan, sadalanan fəaliyyət məhdudlaşdırılmadan, aradan qaldırılmadan İrəvanın ölkəmizin ərazi bütövlüyünün tanınması ilə bağlı bəyanatları belə inandırıcı görünmür.***



Sözsüz ki, Ermənistan tərəfi hər zaman olduğu kimi, təkbaşına heç nəyə qadir deyil və hansısa qüvvələrə sığınan, arxalanan, zaman-zaman buna görə “dilləri uzanan” ermənilərin hələ də səsləri bu səbəbdən çıxır. Bir sözlə, məsələnin mürəkkəbliyi təkcə İrəvanın mövqeyi ilə bağlı deyil, xüsusən, uzun illər onların “miatsum” kimi axmaq layihələrinə “qarant” olan, Ermənistanı qorumaq funksiyasını sanki üzərinə götürən Moskvanın siyasəti ilə də bağlıdır. Bu gün Xankəndidə səs-küy salan, hətta utanmadan ultimatum dili ilə danışanlar da gözlərini Kremlə dikiblər və rusların onları müdafiə edəcəyini guman edirlər deyə orada qalmağa cəsarət edirlər. Əks halda, ya çoxdan ərazilərimizi tərk edib gedərdilər və səslərini belə çıxarmazdılar, ya da rəsmi Bakının şərtlərinə razılaşaraq ərazilərimizdə sakit yaşamağa davam edərdilər. Amma hələ də Rusiyanın dəstəyinə göz dikənlər axmaqcasına elə zənn edirlər ki, nə zamansa ruslar gəlib onlara xüsusi imtiyazlar verə bilərlər, halbulki Moskvanın nə belə bir səlahiyyəti var, nə Kreml erməni oyunlarına alət olmaq kimi bir çıxılmaz yol qarşısında qalmayıb, nə də hayların halına yanmaq üçün ayıracaq vaxt da yoxdur. Sadəcə, Rusiya indi Cənubi Qafqazdakı yerini kimlərə isə, hansısa qüvvələrə isə güzəştə getmək istəmir deyə müəyyən məsələlərlə bağlı mövqeyindən əl çəkmir və ermənilər də bu görüntünün fonunda elə hesab edirlər ki, nə zamansa ruslar yenə onları bu rüsvayçı durumda xilas edəcəklər deyə kənara çəkilmirlər, regionda baş verənlərə təsir etməyə çalışırlar. Bəli, Rusiya regionda baş verənlərə təsir etməyə çalışır, amma bu dəfə ermənilər üçün deyil özü üçün buna çalışır və ermənilər özləri alətə çevriliblər.

Hələ də haylar başa düşməkdə çətinlik çəkirlər ki, Rusiya özü Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyıb və bundan sonra ermənilər üçün, onların torpaq iddiaları uğrunda nəinki döyüşə, heç diplomatik mübarizəyə də qoşula bilməz. Uzaq başı gizli şəkildə proseslərə müdaxilə edə bilər ki, bu da erməni maraqları naminə deyil. Məsələn, Rusiya Sülhməramlı Kontingentinin məsuliyyət zonasında müvəqqəti yerləşən rusların ərazidə qeyri-qanuni idarəçilik və erməni silahlı birləşmələri ilə əlbir olması faktiki olaraq Moskvanın öz siyasətinə xidmət edir, regionda mövcudluğunu qorumaq naminədir, erməni maraqları naminə yox. Azərbaycanın suverenliyinin tam bərpası rusların geosiyasi istəklərinə uyğun deyil və Qarabağda mövcudluğunu saxlamaq üçün Rusiyanın məqbul variant axtarması Moskvanın öz maraqları üçün yürütdüyü siyasətdir. Amma məsələ burasındadır ki, bu siyasət, bu fəaliyyət qeyd olunduğu kimi, prosesi mürəkkəbləşdirir, gərginləşdirir, ən azından ləngidir.



Təbii ki, Moskvanın bütün hərəkətləri Qarabağda qeyri-qanuni formalaşmanı gücləndirir. Xarici şəxslərin, eləcə də şəxsi heyətin, hərbi yüklərin Ermənistana keçirilməsindən tutmuş Vardanyanın deportasiyasına qədər hər bir addım qeyri-qanuni əməllərə yol açır. Bundan da erməni separatçıları sui istifadə edirlər və bundan sonra da istifadə etməyə çalışacaqlar. Laçın keçid məntəqəsində baş verən hadisə də ermənilərin məhz sui istifadə cəhdləri idi. Rusiya birbaşa olaraq bu məsələdə iştirakçı olmasa belə, erməni separatçılarının, təxribatçıların törətdiklərinə rəvac verən rusların öz yürütdükləri siyasətdir ki, bunun fonunda haylar özlərini arxalı, güvənli hiss edərək, hay-küy salmağa cəsarət edirlər. Halbuki, Həkəri çayı üzərindəki körpüdə Azərbaycanın dövlət bayrağına qarşı hörmətsizlik nümayiş etdirilməsi Moskvanın Bakıya təsir etmək üçün effektiv siyasi alətlərinin olmamasından xəbər verir. Bunu ermənilər vaxtında başa düşsələr, anlasalar artıq-əskik hərəkətlərə yol verməzlər. Ən azından başa düşərlər ki, belə hərəkətlərə görə

Laçın Buraxılış Məntəqəsi tibbi məqsədlərdən başqa bütün məqsədlər üçün bağlandı, bundan sonra eyni zamanda bütün maraqlı tərəflərə Ağdam - Xankəndi yolundan istifadə etmək təklifi olundu və deməli, ruslara arxayın olub, güvənib hay-küy salan haylar öz vəziyyətlərini mürəkkəbləşdirmiş oldular.

Rəsmi Bakı beynəlxalq hüquq normalarına qüsursuz şəkildə riayət edir və erməni cəmiyyətinin Azərbaycana qarşı mənfi fikir belə formalaşdırmaq cəhdləri fiaskoya uğrayır. Azərbaycan tərəfinin qanuni şəkildə Laçında yaratdığı məntəqəyə görə harayhəşir qoparan, bunu qondarma olaraq “humanitar böhran” kimi təqdim etməyə çalışan ermənilər özlərini gülünc vəziyyətə qoymuş olurlar. Əvvələ ona görə ki, beynəlxalq hüquq normalarına görə də Azərbaycanın buna haqqı çatır, görülən işlər qanuni şəkildə həyata keçirilib və indi erməni cəmiyyətinin əsassız spekulyasiyaları belə yersiz səslənir. Məhz belə hüquqi hərəkətlər, qanuni addımlar istənilən platformalarda aparılan danışıqlar zamanı Azərbaycanın irəliləyişlərinə töhvə verir və bundan sonra nailiyyətlərə ümidlərimizi artırır. Amma erməni cəmiyyətinin, yaxud bölgədə maraqlı olan tərəflərin, qüvvələrin apardığı siyasət sülh danışıqları istiqamətində gedən prosesləri mürəkkəbləşdirir, diplomatik mübarizənin davam olmasına şərait yaradır. Məsələn, Kreml bir tərəfdən humanitar vəziyyəti dramatikləşdirir, “Laçın dəhlizi”nin açılması barədə fikirlər səsləndirir, digər tərəfdən isə bəyan edir ki, “bu şərtlər daxilində, yəni, Azərbaycanın ərazi bütövlüyünün Ermənistan tərəfindən tanınması şərti daxilində Qarabağın erməni əhalisinin taleyi üçün məsuliyyət üçüncü dövlətlərin üzərinə atılmamalıdır”, yəni faktiki olaraq bəyan edir ki, onlara hərbi və siyasi dəstək verilməməlidir. Deməli, rəsmi Moskva həm məsuliyyətin üçüncü dövlətlərin üzərinə atılmamalı olduğunu bəyan etdiyi halda, Laçın dəhlizini müzakirəyə belə çıxarırsa, təbii ki, prosesin mürəkkəbləşməsinə şərait yaradır. Amma sözsüz ki, bununla nəyə isə nail olunacağı heç də mümkün görünmür və bunu ermənilər də, ruslar özləri də hamıdan yaxşı başa düşürlər.

Diqqətə çatdıraq ki, bu arada Qarabağdakı qeyri-qanuni birləşmənin lideri Arayik Arutyunyan əyalət kobudluğu ilə ifrat tədbirlərə getdiyini bəyan edərək, oturaq tətil elan etdi. “Mən bu ifrat addımı atmağa məcburam ki, Ermənistan, Rusiya, ABŞ, Fransa, Aİ, BMT Təhlükəsizlik Şurası və digər dövlətlər Azərbaycanın indiki və gələcək təcavüzkar hərəkətlərinə və cinayətlərinə məhəl qoysunlar, sonra isə, üçtərəfli bəyanat, beynəlxalq məhkəmənin qərarı və digərləri ilə əlaqədar öz öhdəliklərini yerinə yetirsinlər”, deyə Arutyunyan öz hərəkətini əsaslandırmağa çalışıb. Maraqlıdır, Araik kimə səsləndiyini düşünür? Xankəndidəki bu avantüristin, separatçının oturaq tətil etməsindən kimlərin, özü də hansı itgiləri ola bilər ki, belə bir axmaq fikir səsləndirir? Bu axmaqlığı ilə kimləri nəyə məcbur etmək istəyir və əks təqdirdə hansı qüvvəyə, hansı gücə və hansı potensiala güvənir axı? Sözsüz ki, onun üçün güvəniləcək nə potensial var, nə də güc və onsuz da gec-tez erməni birləşmələri, o cümlədən yerli dəstələr Qarabağ ərazisini tərk etməli olacaqdılar. Bu Araik adlı separatçı başa düşməlidir ki, nə Tehran, nə Vaşinqton, nə Brüssel, nə Paris, nə Moskva, hətta İrəvan özü də bir ovuc quldurun tərəfində döyüşə girməyəcək. Başa düşməlidir ki, özünü hakimiyyət adlandıran qurumların nümayəndələri Bakının mərhəmətinə nə qədər tez təslim olsalar bir o qədər tez fəlakətdən yaxa qurtara bilərlər. Bəli, belə axmaq və absurd addımlara əl atanlar ruslara ünvanlanmış olurlar, amma Rusiyaya göz dikənlər başa düşməlidirlər ki, Moskva danışıqlar aparacaqsa da, Azərbaycanda iqtisadi maraqlarını da olsa nəzərə alaraq aparacaq. Rusiya üçün maraqlar və perspektivlər o qədər böyükdür ki, onları Qarabağda illüziya mövcudluğu naminə qurban vermək yolverilməzdir və bu reallığı Moskva diqqətdən qaçıran deyil. Heç şübhəsiz ki, Moskvada keçiriləcək növbəti danışıqlar raundunda Bakının irəli sürdüyü ədalət prinsipləri əsasında regionda sülhün təşviqinə Rusiya öz töhfəsini verməli olacaq. Amma hər bir halda, ümumilikdə dünya ictimaiyyəti diplomatik mübarizənin davam etdiyinin şahidi olur və məsələnin nə qədər mürəkkəbləşdirilməsindən asılı olmayaraq, Azərbaycanın diplomatik qələbələrinə, uğurlarına, irəliləyişlərinə hər kəsin ümidi böyükdür, çünki hər dəfə, hər bir platformada və hər danışıqlar masasından bunun əyani şahidi olub.

**İnam Hacıyev**






# “Media qlobal transformasiyalar dövründə: ənənələrdə varislik, jurnalistika prinsipləri və ictimai maraqlar”

## *Bakıda milli mətbuatımızın 148 illiyinə həsr olunmuş konfrans keçirilib*







***Dünən Bakıda Azərbaycan milli mətbuatının 148 illiyinə həsr olunmuş “Media qlobal transformasiyalar dövründə: ənənələrdə varislik, jurnalistika prinsipləri və ictimai maraqlar” mövzusunda konfrans keçirilib.***

Azərbaycan Respublikası Audiovizual Şurasının, Medianın İnkişafı Agentliyinin (MEDİA), Mətbuat Şurasının birgə təşkilatçılığı ilə reallaşan konfrans Dövlət Himninin səsləndirilməsi və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş vətən övladlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Konfransda çıxış edən Mətbuat Şurasının sədri Rəşad Məcid Ulu Öndər Heydər Əliyevin mediaya diqqət və qayğısından danışıb. Bildirib ki, Ulu Öndər Heydər Əliyevin sovet vaxtı həyata keçirdiyi işlər məhz müstəqillik yolunda atılmış addımlar idi. Müstəqillik dövründə Ümummilli Liderin mətbuata verdiyi önəmin şahidi olduq. Həmin dövrdə 100 ildən artıq mövcud olan senzura ləğv edildi, mətbuat üçün yeni şərait yaradıldı. Mətbuatın özünü tənzimləməsi istiqamətində qərarlar, qanunlar qəbul edildi. Ulu Öndər, həmçinin mətbuat nümayəndələri ilə mütəmadi görüşlər keçirirdi.

Rəşad Məcid qeyd edib ki, Ümummilli Liderin mətbuatla bağlı həyata keçirdiyi tədbirlər onun siyasi varisi Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Müasir dövrdə media sahəsində islahatların dərinləşməsi, Medianın İnkişafı Agentliyinin yaranması, “Media haqqında” yeni Qanunun qəbulu dövlətimizin başçısının bu sahəyə verdiyi qiymətin təzahürüdür.

Medianın İnkişafı Agentliyinin şöbə müdiri Natiq Məmmədli diqqətə çatdırıb ki, Zəfərlə başa çatan Vətən müharibəsindən dərhal sonra Azərbaycan Prezidentinin təşəbbüsü ilə ölkəmizdə media sahəsində islahatların dərinləşməsi prosesi başladı. Bu islahatlar medianın inkişafının dövlətimiz üçün önəminin göstəricisi idi.

O bildirib ki, “Media haqqında” Qanunun və aparılan islahatların bu sahəyə gətirdiyi yeniliklərdən biri bütün media subyektlərinin biznes mühitinə keçidini sürətləndirmək idi. Bu islahatlarla Azərbaycan mətbuatında vergi tətilləri tətbiq edildi, media reyestri yaradıldı. Media qanunvericiliyinin təkmilləşdirilməsinin, media islahatlarının əsas məqsədi bu sahədə inkişafa nail olmaqdır. Bu proses davamlı xarakter daşıyacaq.

Audiovizual Şuranın sədri İsmət Səttarov qeyd edib ki, XIX əsrdə “Əkinçi” qəzetinin çapı ilə möhkəm təməllər üzərində bünövrəsi qoyulan Azərbaycan mətbuatı XXI əsrdə də öz missiyasını uğurla davam etdirir. Azərbaycan ikinci dəfə müstəqillik əldə etdikdən sonra zamanın bütün sınaqlarından üzüağ çıxan milli mətbuatımız üçün də yeni dövr başlayıb. Mediamızın bu dövrünün Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu söyləyən İsmət Səttarov deyib ki, Ümummilli Liderin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev mediaya doğma münasibət sərgiləyir. Dövlətimizin başçısının diqqəti nəticəsində mediaya sistemli dəstək göstərilir. Qeyd edilib ki, media sahəsində aparılan bütün islahatların kökündə dayanan amil isə dövlətə və dövlətçiliyə xidmət, medianın inkişafına nail olmaqdır. Bu gün peşə bayramını iş başında keçirən jurnalistlər həm cəmiyyəti informasiya ilə təmin edirlər, həm də Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında böyük rol oynayırlar. İnformasiya və kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi dövrdə media işçilərinin üzərinə daha böyük məsuliyyət düşür - qloballaşan dünyada qlobal təhdidlərə qarşı çıxmaq, texnoloji inkişafın verdiyi bütün imkanlardan istifadə edərək Azərbaycan həqiqətlərini dünyaya səsləndirmək. “Düşünürəm ki, jurnalistlərimiz, media nümayəndələrimiz bu missiyanın öhdəsindən fəxrlə və böyük məsuliyyətlə gələcəklər”, - deyə İ.Səttarov vurğulayıb.

Sonra Mətbuat Şurasının sədr müavini Səadət Məmmədovanın moderatorluğu ilə “Azərbaycanın milli mətbuatı: ənənə və müasir trendlər” mövzusunda panel iclas keçirilib. İclasda “Şərq” qəzetinin baş redaktoru Akif Aşırlı “Milli mənlik şüurumuzun oyanışı və müstəqil dövlət quruculuğunda medianın rolu”, “Xalq qəzeti”nin baş redaktoru Əflatun Amaşov “Ulu Öndər Heydər Əliyevin media islahatları: qanunvericilik və plüralizm”, Medianın İnkişafı Agentliyinin əməkdaşı Pərvanə İbrahimova “Media savadlılığı cəmiyyətin informasiya təhlükəsizliyinin vacib elementi kimi”, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli “Jurnalist peşəkarlığında xarici standartlar: beynəlxalq media qurumları ilə təmaslar və təcrübə mübadiləsi” mövzularında çıxışlar ediblər.

Konfrans işini “APA Holdinq”in rəhbəri Vüsalə Mahirqızının moteratorluğu ilə “Mediada müasir transformasiya, informasiyalı cəmiyyət amili və ictimai maraqlar” adlı panel iclası ilə davam etdirib. İclasda Audiovizual Şuranın Aparat rəhbəri Fazil Novruzovun “Müasir Audiovizual kontent: ənənəvilik və müasirlik”, Naxçıvan Muxtar Respublikasının “Televiziya və Radio Verilişləri” QSC-nin sədri Sahil Tahirlinin “Naxçıvan mətbuatı tarixdən bu günə və müasir tendensiyalar”, “Technote” şirkətinin rəhbəri Fərid Pərdəşünasın “Süni intellekt jurnalistikanı necə dəyişir?” və “Aran” qəzetinin baş redaktoru Məhsəti Musanın “Bölgə mediasının fəaliyyətində yeni xüsusiyyətlər” mövzularında məruzələri dinlənilib.

# Qürurla verilən vəd qətiyyətlə gercəkləşdirilir!

## PREZİDENT İLHAM ƏLİYEV: "İlin sonuna qədər ölkəmizin uğurlu inkişafı təmin ediləcəkdir"



***11 iyul 2023-cü il tarixdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə geniş nitqlə çıxış edən dövlətimizin başçısı ötən dövrdə əldə olunan nailiyyətlər və son dövrdə ölkədə və regionda baş verən proseslərlə bağlı fikirlərini səsləndirdi.***

TƏHLİL

Prezident İlham Əliyev bu ilin altı ayının yekunlarına həsr olunan müşavirədə çıxışı zamanı bildirib ki, «ilin əvvəlində verdiyim tapşırıqların yerinə yetirilməsi ilə bağlı bir çox addımlar atılmışdır. İlin altı ayı arxada qalır. Müəyyən dərəcədə yekunlar haqqında danışmaq olar. Halbuki əminəm ki, ilin sonuna qədər ölkəmizin uğurlu inkişafı təmin ediləcəkdir».

Dövlət başçısı açıqlayıb ki, bütövlükdə altı ay ərzində ölkə iqtisadiyyatı inkişaf edib, qeyri-neft sektoru və qeyri-neft sektorunun sənaye sahəsi kifayət qədər artıb. Qeyri-neft sənayesi 6,5 faiz qeyri-neft sektoru, ümumiyyətlə, 3 faizdən çox artıbdır.Əminəm ki, ilin sonuna qədər ölkəmizin uğurlu inkişafı təmin ediləcək».

### GÖRÜLƏN İŞLƏR, HƏR BİR AZƏRBAYCANLININ PREZİDENTİ OLDUĞUNU, SÖZÜ İLƏ ƏMƏLİNİN ÜST-ÜSTƏ DÜŞMƏSİNİN MƏNTİQİ SÜBUTUDUR

Bəli, bu gün insanlar həmişə sözlə əməlin üst-üstə düşməsinə qiymət verir, sözünün arxasında dayanan şəxsiyyəti alqışlayır və dəstəkləyirlər. Müzəffər Ali Baş Komandan İlham Əliyev cənabları da Prezidentlik fəaliyyətinin 20 ili ərzində xalqına verdiyi vədləri yerinə yetirmiş güclü siyasi lider olaraq hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyir. Və bu gün görülən işlər, hər bir azərbaycanlının Prezidenti olduğunu, sözü ilə əməlinin üst-üstə düşməsinin məntiqi sübutudur.

Azərbaycan Prezidenti İlham Əliyev bütün müsahibələrində, çıxışlarında da qürurla verilən vədin qətiyyətlə gerçəkləşdirildiyini aydın şəkildə təqdim edir. Cari ilin əvvəlində Dövlət başçımızın yerdi televiziyi kanallarına verdiyi müsahibəsində öildirmişdir ki, «Əminəm ki, 2023-cü ildə bizi çox yaxşı anlar gözləyir. Çünki bilirsiniz, dünyada mümkün olmayan bir şey yoxdur. Qayıdırıq Laçın-Xankəndi yolundakı həmin aksiyaya. Kimin ağlına gələ bilərdi ki, 2022-ci ildə - müharibədən cəmi iki il sonra artıq tamamilə yeni bir vəziyyət yaranacaq. Yaxud da ki, sentyabra qayıdaq. Kimin ağlına gələ bilərdi ki, bu gün Ermənistan haqsız olaraq bizi işğalda ittiham edəcək. İki il, üç il bundan əvvəl əgər kiməsə bunu desəydin, deyərdi ki, deyəsən sənin başın xarab olub, belə sadə dillə desək. Amma mümkün olmayan heç nə yoxdur, bizim əlimizdədir. Amma biz ədaləti istəyirik, ancaq ədaləti. Pozulmuş ədaləti bərpa edirik, hələ tam bərpa etməmişik, amma bərpa edəcəyik, mənim şübhəm yoxdur və əminəm ki, Azərbaycan xalqı da bu nikbinliyi bölüşür». Bəli, artıq...

### CARİ İLİN 6 AYININ NƏTİCƏLƏRİ BİR DAHA VERİLƏN VƏDİN GÖSTƏRİCİSİDİR

Bəli, 2023-cü ilin 6 ayının nəticələri bir daha verilən vədin göstəricisidir. Bu gün - 33 ildən sonra isə dövlətimiz və xalqımız ən şərəfli günlərini yaşayır, tariximizin qürur doğuran səhifələri yazılır. İndi Şuşa da azaddır, Laçın, Kəlbəcər də, Ağdam da və digər işğal olunmuş rayonlar da. Hazırda işğaldan azad olunmuş torpaqlarımız bərpa olunur, yenidən qurulur. Qarabağın Azərbaycana məxsusluğunu mədəniyyət müstəvisində bəyan edən "Xarıbülbül" festivalı artıq bərpa olunub. Bütün bu uğurlar Qalib Liderin sözünün və əməlinin vəhdətinin nümayişidir. Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib.

«Bu ilin altı ayında isə əsas istiqamətimiz ölkəmizin dayanıqlı inkişafının təmin edilməsi, qeyri-neft sektorunun inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, iqtisadi və sosial sahələrdə islahatların davam etdirilməsi idi. Deyə bilərəm ki, bütövlükdə altı ay ərzində iqtisadiyyatımız inkişaf edib, halbuki mütləq rəqəmlər o qədər də böyük deyil», - deyə dövlətimizin başçısı qeyd edib. Müşavirə zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyri-neft sənayemizin 6,5 faiz qeyri-neft sektorunun isə 3 faizdən çox artmasını xüsusilə qeyd etmişdir.

Qeyd edək ki, bu gün Azərbaycanda qeydə alınan sürətli iqtisadi inkişafda neft sektorunun rolu aparıcı olsa da son illər qeyri-neft sektoru ümumi iqtisadi artımda önə çıxmaqdadır. Neft gəlirlərinin iqtisadiyyatın şaxələndirilməsinə hesablanmış xərclənmə strategiyası özünü doğruldub. Keçid dövrünü yaşamış hər bir ölkə kimi Azərbaycan da güclü iqtisadiyyat qurmaq üçün öz təbii resurslarından faydalanıb, ancaq bu resurslardan əldə etdiyi gəlirlər hesabına iqtisadiyyatını uğurla şaxələndirə və onun neftdən asılılığını minimuma endirə bilib. Bu strategiya nəticəsində ölkədə tikinti, turizm, kənd təsərrüfatı, nəqliyyat, informasiya və kommunikasiya texnologiyaları sektorlarında davamlı artım tendensiyası hökm sürməkdədir. Qeyri-neft sənayesinin artımı real iqtisadiyyatın inkişafını şərtləndirir. Hazırda Azərbaycanda istehsal edilən qeyri-neft məhsulları, o cümlədən elektrik maşınları və avadanlıqları, onların hissələri, kimya sənayesi məhsulları, tikinti materialları, hazır toxuculuq məmulatları və s. müxtəlif bölgələrə ixrac edilir. İqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafına zəmin yaratmaq üçün ölkə Prezidentinin sərəncamları və təsdiq etdiyi inkişaf proqramları əsasında kiçik və orta sahibkarlığın dəstəklənməsinə, bu fəaliyyətlə məşğul olanlara güzəştli dövlət kreditlərinin ayrılmasına, kənd təsərrüfatına subsidiyaların yönəldilməsinə, ölkə boyu nəqliyyat-kommunikasiya infrastrukturunun yenidən qurulmasına milyardlarla dollarlıq vəsait xərclənib. Bu xərcləmələr çox keçmədən öz bəhrəsini verməyə başlayıb və iqtisadiyyatın qeyri-neft sektorunda böyük canlanmaya səbəb olub.

### «BUİLKİ DÖVLƏT BÜDCƏMİZ REKORD HƏDDƏ ÇATMIŞDIR - 36 MİLYARD MANATDAN ÇOX»

Bəli, müstəqillik tariximizin rekord həddində olan dövlət büdcəsi daha da artaraq 36 milyard dolları örtmüşdür. Müşavirdə dövlət başçımız bildirdi ki, bizim maliyyə vəziyyətimiz böyük dərəcədə yaxşılaşıb, bunun bir çox səbəbləri var. İlk növbədə, maliyyə sektorundakı nizam-intizamın möhkəmləndirilməsi, vergi və gömrük orqanlarında islahatların davam etdirilməsi, şəffaflığın təmin edilməsi - bütün bu amillər imkan verdi ki, ilin ortasında biz büdcəyə yenidən baxaq və dürüstləşmə aparaq: «Bu, çox sevindirici haldır, çünki proqnozlardan xeyli dərəcədə böyük vəsait toplanmışdır. Onsuz da bizim builki dövlət büdcəmiz rekord həddə çatmışdır, 33 milyard manatdan çox səviyyəyə qalxmışdır»,-deyən Azərbaycan Prezident ionu da vurğulayıb ki, bu ilin birinci yarısında əlavə gəlirlərin əldə edilməsi imkan verdi ki, biz təcili həllini gözləyən məsələləri daha tez zamanda həll etmək üçün büdcəyə əlavələr edək və bunu etdik: «Bu gün bizim büdcəmiz 36 milyard manatdan çoxdur. Əlbəttə, bu, bizə imkan verir ki, həm ölkə qarşısında duran əsas investisiya layihələrini icra edək, ilk növbədə, bir daha demək istəyirəm ki, azad edilmiş torpaqlarda geniş quruculuq işlərinə növbəti təkan verək və bizim hərbi gücümüzü artıraq».

### «BİZ HƏR ŞEYİ PLANLI ŞƏKİLDƏ EDİRİK, ORADA ƏN YÜKSƏK STANDARTLAR TƏTBİQ EDİLİR VƏ EDİLMƏLİDİR»

Dövlətimizin başçısı çıxışında azad edilmiş torpaqlarda həyata keçirilən abadlıq-quruculuq işlərinə, keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması məsələsinə toxunanaraq ilin sonuna qədər Laçın şəhərinin Zabux və Sus kəndlərinə də keçmiş məcburi köçkünlərin qayıdacaqlarını bildirdi. Cənab Prezident Qayıdış proqramının ardıcıllıqla aparıdığını və ilin sonuna qədər artıq beş yaşayış məntəqəsi - bir şəhər və dörd kənddə vətəndaşlar öz dədə-baba torpaqlarında tam məskunlaşacağının anonsunu verdi: «Bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzura biz təqribən 12 milyard manata qədər vəsaitin xərclənməsini təmin edəcəyik", deyən Prezident İlham Əliyev görülən bütün işlərin Azərbaycan öz hesabına, iki məktəb istisna olmaqla, qalan bütün infrastruktur, inşaat işləri Azərbaycanın büdcəsi hesabına və Azərbaycanın dövlət şirkətləri tərəfindən həyata keçirildiyini, eyni zamanda, Heydər Əliyev Fondu ondan çox məscidi yenidən inşa, yaxud da ki, onları əsaslı şəkildə bərpa etdiyini diqqətə çatdırdı.

Azərbaycan Prezidenti müşavirədə Qayıdış proqramının ardıcıllıqla aparıldığını, ilin sonuna qədər beş yaşayış məntəqəsində bir şəhər və dörd kəndlərinə vətəndaşların öz dədə-baba torpaqlarında tam məskunlaşacağını, ilin sonuna qədər Laçın şəhərinin Zabux və Sus kəndlərinə də keçmiş məcburi köçkünlərin qayıdacaqlar. Qayıdış proqramı ardıcıllıqla aparılır və beləliklə, ilin sonuna qədər bizim artıq beş yaşayış məntəqəmizdə - bir şəhər və dörd kəndimizdə vətəndaşlar öz dədə-baba torpaqlarında tam məskunlaşacaqlar: «Bütövlükdə Böyük Qayıdış proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur. Mən şəxsən 30 yaşayış məntəqəsinin - 8 şəhər, 22 qəsəbə və kəndin təməlinin qoyulmasında iştirak etmişəm».

Onu da qeyd edək ki, 44 günlük Vətən müharibəsində qazandığımız Zəfrdən dərhal sonra Qarabağın və Şərqi Zəngəzurda bütün görüləcək işlər Azərbaycan Prezidentinin daima diqqət mərkəzində olub: «Əlbəttə ki, biz, bu sahədə görüləcək işləri daim diqqət mərkəzində saxlamalıyıq. Deyə bilərəm ki, mənim gündəlik fəaliyyətimdə bu məsələ bu gün birinci yerdə dayanan məsələdir və biz daim bütün işlərə nəzarət edirik. Hökumət üzvləri və digər rəsmi şəxslər müntəzəm olaraq azad edilmiş bölgələrə ezam olunurlar. Biz hər şeyi planlı şəkildə edirik, orada ən yüksək standartlar tətbiq edilir və edilməlidir. Bütövlükdə nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzura biz təqribən 12 milyard manata qədər vəsaitin xərclənməsini təmin edəcəyik».

Bütün bunlar isə növbəti 6 ayda iqtisadi artım tempinin qorunub saxlanması ilə yanaşı, sosial təminatın gücləndirilməsi ilə bağlı fəaliyyətlərin daha da genişləndirilməsinin müşahidə olunacağından xəbər verir. Növbəti dövr üçün də iqtisadi islahatların dərinləşməsi hədəf olaraq qalmaqdadır.

**RƏFİQƏ KAMALQIZI**

# Ağalıda yaşanılan bir il





***Bütün keçmiş köçkünlər tezliklə dədə-baba torpaqlarına, əzəli ocaqlarına qayıdacaqlar. Zamanla bərpa olunacaq yerlərimizdə ocaqlarını yandırıb, öz həyatlarını davam etdirəcəklər. O yerlər öz sakinlərini illər idi ki, intizarla gözləyirdi. Böyük Qayıdışın ilk səsi Ağalıdan eşidildi. Ağalı kənd sakinlərinin ilk qrupu bir il əvvəl 19 iyul 2022-ci ildə Şərqi Zəngəzurun Zəngilan rayonuna köçürüldü. Prezident İlham Əliyev: "Ağalı kəndinin timsalında hər bir Azərbaycan vətəndaşı və ümumiyyətlə, hər bir insan bizim planlarımızı görə bilər", - deyə bildirmişdir.***



Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdış Zəngilan rayonunda "Ağıllı kənd" konsepsiyası əsasında yenidən salınmış Ağalı kəndinə sakinlərin köçürülməsi ilə başlanıldı. Tariximizə yazılacaq Böyük Qaydışın ilk karvanı əzəli torpağımıza yol aldı. Qısa bir zamanda abadlıq-quruculuq işlərinə başlanıldı. Cənab Prezidentin bildirdiyi kimi, biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik və Zəngilan rayonu bu sahədə birinci rayondur ki, artıq keçmiş məcburi köçkünlər yaxın gələcəkdə oraya qayıdacaqlar. Nəhayət, həmin günə şahidlik etdik. Birinci "Ağıllı kənd" pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə etdi. Birinci pilot layihə Zəngilanın Ağalı kəndində həyata keçirildi. Yenidən qurulan Ağalı kəndi müasir tələblərə uyğun olaraq yeni həyatına qovuşdu. Birinci, İkinci, Üçüncü Ağalı kəndləri 2020-ci ilin oktyabrın 28-də işğalçılardan azad edildi. Altı aydan sonra Ağalıda yeni kəndin təməl daşı qoyuldu.

## SAKİNLƏR PEŞƏ İXTİSASLARINA VƏ BACARIQLARINA UYĞUN İŞLƏ TƏMİN EDİLİBLƏR

İşğala qədər bu inzibati ərazi 3 kəndi birləşdirib. Həmin dövrdə Birinci Ağalıda 40 ailə (154 nəfər), İkinci Ağalıda 60 ailə (245 nəfər), Üçüncü Ağalıda isə 161 ailə (675 nəfər) yaşayıb. Hazırda bu kəndlərdən olan ailələrin ümumi sayı 352-dir (1504 nəfər). Birinci mərhələdə 41 ailə köçürüldü. İllərlə həsrətdə qalan insanlar öz torpaqlarında ocaqlarının işığını yandırdılar. Kimisi, dünyadan həsrətlə köç etdi, kimisi də bu torpaqda ayaq açmasa belə gələcək həatının bu məkanla davam etdirməyə başladı. Ağalını görməyənlərin xəyalında qurduqları ərazi bu gün onları dərin köklərlə bu diyara sıx bağlayıb. Şəhid qanı axıdılan torpaqlarımız bu gün bizim üçün müqəddəsdir. O yerlərə laqeyd qalmaq qeyri-mümkündür. İlkin mərhələdə köçürülən ailələr əsasən müvəqqəti məskunlaşma yerlərində ən ağır şəraitdə yaşayanlar arasından seçildi və bu zaman köçürülmə üçün təqdim edilən yaşayış sahələrinin həcmi nəzərə alındı. Köçürülənlər arasında Birinci, İkinci və Üçüncü Ağalı kəndlərinin hər birinin sakinləri vardır. Evlərin bölgüsü məcburi köçkünlərə yeni yaşayış sahələrinin verilməsinin hazırda qüvvədə olan qaydaları əsasında, şəffaflıq və ədalətlilik prinsipləri əsasında püşkatma ilə aparıldı. Bu günədək Böyük Qayıdış layihəsi çərçivəsində Zəngilan rayonunun Ağalı kəndinə ümumilikdə 86 ailə, 420 nəfər köçürülüb. Köçürülən keçmiş məcburi köçkünlərin böyük qismi əsasən daha ağır şəraitdə yaşayanlardır. Müvafiq qurumlar tərəfindən sakinlər peşə ixtisaslarına və bacarıqlarına uyğun şəkildə işlə təmin ediliblər.

Ağalıya köçürülən ilk sakinlər arasında müxtəlif yaş həddində olan insanların olması istisna deyil. Təqaüdçü, tələbə, evdar qadınlar olmaqla yanaşı, mühəndis, satıcı-kassir, gözətçi, bağban, aqronom, müəllim, həkim, kiçik sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər və s. xidmət, səhiyyə və təhsil sahələri üzrə ixtisaslaşmış kadrlar var. Köçürülən ailələrə peşələrinə uyğun iş yerləri təklif olunub. Mövcud qanunvericiliyə əsasən, məcburi köçkünlər daimi yaşayış yerlərinə qayıtdıqdan sonra üç il müddətində dövlətin onlar üçün müəyyən etdiyi sosial müdafiə tədbirlərindən yararlana biləcəklər.

Ağalı kəndində "Kapital Bank"ın Zəngilan filialı, kənd təsərrüfatı təyinatlı laboratoriyalar, baytarlıq və bitki mühafizə idarələri və digər ictimai iaşə obyektləri fəaliyyət göstərəcək ki, bu da əhalinin işlə təminatında mühüm rola malikdir. Ağalı kəndində müasir şəhərsalma standartları tətbiq olunub. Küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğadavamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, günəş panellərinin quraşdırılması kimi amillər bu konsepsiyanın tərkib hissələridir.

"Gillmed" tikiş fabriki, ailə sağlamlıq mərkəzi, uşaq bağçası və kənd orta məktəbi də həyata keçirilmiş layihələr sırasındadır. Göründüyü kimi, "Ağıllı kənd"də müasirlik təkcə qurulan infrastrukturla məhdudlaşmır, burada təhsilə yeni yanaşmanın tətbiqi də mühüm rol oynayır. 360 şagird yerlik ikimərtəbəli məktəb binası və birmərtəbəli 60 yerlik uşaq bağçası onların ixtiyarındadır.

## BÖYÜK QAYIDIŞ DAVAM EDİR

44 günlük Vətən müharibəsində Azərbaycan tarixi ədaləti bərpa edərək, 30 ilə yaxın işğal altında olan torpaqları düşmən tapdağından azad etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatını sürətlə həyata keçirməyə imkan verdi. Azərbaycan Ermənistanın belini qırmaqla öz torpaqlarını düşmən tapdağından azad etdi. Azərbaycanın hərbi gücü, qüdrəti 44 günlük müharibə zamanında özünü göstərdi. Xatırladaq ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı Zəfər 30 ilə yaxın doğma yurdun həsrətini çəkən keçmiş məcburi köçkün həmvətənlərimizin işğaldan azad edilmiş ərazilərdəki doğma yurd yerlərinə qayıtmasına imkan yaratmış oldu. Köçkünlük həyatı yaşadıqları dövrdə onlar daim dövlətimizin diqqət və qayğısı ilə əhatə olundular.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunan ərazilərimizdəki abidələr, mədəniyyət ocaqları, məscidlər, qəbiristanlıqlar dağıdılıb, təhqir edilmişdir. Ümumiyyətlə, 30 ilə yaxın müddətdə işğal altında saxlanılan ərazilərimizdə yaşayış məntəqələrinin əksəriyyəti, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılıb. Həmin ərazilərimizdə ən müasir texnologiyalara əsaslanan quruculuq konsepsiyası əsasında bərpasına başlanılıb. Qısa bir zamanda reallaşan infrastruktur layihələr, abadlıq və quruculuq işləri Azərbaycanın iqtisadi gücünü bir daha ortaya qoymuş oldu. Zəngilan rayonun Ağalı kəndində də sürətlə görülən işlər bu şəhərin sakinlərini tezliklə qoynuna alacağından xəbər vermiş oldu.

İlk köç Ağalıdan başlasa da, Talış, Laçına da qayıdış oldu. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq bərpa edilən və yenidən qurulan Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Bu günlərdə növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundakı "Qobu park 3" yaşayış kompleksindən Laçına yola salındı. Bununla da, Laçın şəhərində 93 ailə, yəni 351 nəfərin daimi məskunlaşması təmin edilib. Köçürülən ailələr, Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlətimizin başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşıblar. İşğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl işlər görülür.

***Zümrüd BAYRAMOVA***

# 148-dən ötən 365-lər...

***“Əkinçi”nin 148-ci ildönümü ərəfəsində Fəxri Xiyabandayam, məzarını ziyarət edirəm, hər bir jurnalist kimi borcum olaraq... Salamlar olsun müqəddəs ruhuna, Həsən bəy! Bilirəm, harada bir qəzet redaksiyası varsa, sənin ruhun oradadır. Hələ o da ola sələfinin yolunu böyük tarixi nailiyyətlərlə davam etdirən xələfin – 30 yaşlı “Səs” qəzeti. Onu da bilirəm ki, ruhun şad, xürrəmdir. Nə az, nə çox, düz 7 illik mücadilə, olmazın əzab-əziyyəti ilə, qarşıdurmalarla “Əkinçi”nin nəşrinə nail olub, Azərbaycanda milli mətbuatımızın banisinə çevrilməyini, ilk mətbu orqanın ardınca minlərlə qəzetlərin işıq üzü görməsini, ölkəmizdə sadiq davamçılarından ibarət böyük jurnalist ordusunun yaranmasını, mətbuatımıza söz azadlığının, müstəqilliyin verilməsini, illərlə bir mətbuat fədaisi yanarlılığı ilə hər vilayətin qəzetinin o vilayətin güzgüsü olmasının gərəkliyi ilə bağlı arzularının reallaşmasını 148-dən ötən 365-lər sənə təfsilatı ilə çatdırıb.***






Həsən bəy, mən də bu 148-nin bir qərinəlik dövrünü həyatımın bir hissəsinə çevirən mətbuat adamı kimi, nə qədər haqqım olduğunu bilmirəm, amma ustada üz tutub ötən 365-lərdə mətbuatımızla bağlı olanlardan, keçənlərdən ona – millətinin mənəvi yükünü söz yükünə çevirib illərlə çiyinlərində daşıyan, elə həmin yüklə də bu dünyadan əbədiyyətinə köç edən qocamanla söhbət etmək istədim. Sən bütöv bir millətin, xüsusilə də biz qəzetçilərin əzizisən. Sənin mürtəce qüvvələrin təqibləri, həbsləri, evinə basqınları ilə, ailənin hər an təhlükə ilə üzüzə qalması, işindən kənarlaşdırılmağın, yaşayış yerindən uzaqlaşdırılmağın, ev dustağına çevrilməyin hesabına, lakin bu mübarizədən dönmədən yaratdığın mətbuatla, bir də Həsən bəy Zərdabi adı, şəxsiyyəti ilə minlərlə jurnalist qürur duyur: sənin davamçılarına çevrilə bildiyimiz, ötən hər günün tarixini yazdığımız, bu günü gələcəyə götürə bildiyimiz, ictimai həyata güzgü tutmağı bacardığımız üçün. Sənin “Əkinçi”nin böyük zəhmətkeşliklə toxum səpib cücərtdiyi “tarlalar” həm də bu gün minlərlə jurnalistin çörək ağacıdır. Söz əkib cümlə biçən, müasir dövrün ictimai həyatının fəal “Əkinçi”lərinə çevrilən hər birimiz sənin ruhuna duaçıyıq, ustad. Bilirsənmi nəyə görə? Səndən öyrənmişik mübarizədən əl götürməməyi. Səndən öyrənmişik insanların haqqı olanların haqqında yazmağı, həyata güzgü tutmağı, düzü düz, əyrini əyri görməyi...

Həsən bəy, bir qədər əvvəldən danışım sənə. Səndən sonra bilirsənmi nələr oldu? “Əkinçi”nin adı ilə bağlı nə qədər fikir ayrılıqları yarandı. Qəzetə nə üçün məhz “Əkinçi” adının qoyulması ilə bağlı bir çox tədqiqatçılar ayrı-ayrı mülahizələr irəli sürdülər. Onlardan bəziləri söylədilər ki, “Əkinçi” elə lap əvvəldən kənd təsərrüfatı məsələlərini əks etdirən bir qəzet olmalı imiş. Bununla qətiyyən razılaşmadıq. Çünki yaxşı bilirdik ki, qəzetə verilən “Əkinçi” adı təsadüfi deyildi. “Əkinçi” adı elə onun demokratikliyinin göstəricisi idi. Bunu da bilirdik ki, sən o dövrdə qəzetə diqqətçəkən ad verə bilməzdin. İllərlə çar müstəmləkəçilərinin süründürməçilik əzablarına tab gətirib, qəzet çıxarmaq üçün izin alanda bilirdin ki, qəzetin adı da, orada yazılanlar da zərrəbinlə analiz ediləcək. Buna görə də çarizmin diqqətini çəkməyən ad altında, sərlövhələr altında nəzərində tutduqlarının hamısını həyata keçirməyə başladın. Axı bu barədə özün də “Həyat” qəzetində dərc edilmiş “Rusiyada əvvəlimci türk qəzeti” adlı məqaləndə yazırdın: “Bizim qubernator... general Staroselski, doğrudur, xalis rus idi, amma övrəti gürcü qızı idi. Ona görə də Qafqazın yerli əhlini artıq dost tuturdu... mən ona dərdimi deyəndən sonra məsləhət gördü ki, qəzetin adını “Əkinçi” qoyum ki, guya məhz əkin və ziraətdən danışacaq və özü də boynuna çəkdi ki, senzorluğu qəbul eləsin. Bu tövr ərizə verib izn aldım”.

Səni sevənlər, davamçıların sübut etdilər, Azərbaycan Respublikası Elmlər Akademiyası yanında Respublika Əlyazmaları fondundan əlyazmalarını araşdırdılar və əsl məqsədini ortaya qoydular: “Əkinçi”nin qarşısında, hər şeydən əvvəl, siyasi vəzifə dururdu və əkinçilik vəzifələri ona tabe idi. Dini mövhumata qarşı mübarizə, dini məktəblərin pislənməsi, yeni, dünyəvi elmlərin geniş təbliği, xalqı azadlığa çağırmaq, geniş maarif uğrunda mübarizə əkinçilik məsələləri dairəsindən çox-çox kənara çıxırdı. Qəzetin bölmələrinə ayrı-ayrı adlar qoyulmasına baxmayaraq, onlar adları çəkilən bu məsələlərlə üzvi surətdə bağlı idi. Sənin öz dilinlə həmin misallardan biri... “Əkinçi”, 14 aprel, 1876-cı il. “...Mənim dostum...mənə yazır ki, haçan elmi-əbdan bəhsindən əl çəkəcəksiniz və o bəhsin qəzetdə işi nədir? Ondan əlavə yazır ki, ol qədər qəzetdə elmi təhsil etmək xüsusunda yazırsınız ki, qorxuram bu ən qərib zamanda xalqın qəzet oxumaqdan rəğbəti kəsilsin... Salisən, qəzet dərviş kimi nağıl deyə bilməz, onun borcudur işlərin yaxşı və yamanlığını ayna kimi xalqa göstərsin, ta xalq öz nikbədindən xəbərdar olub onun əlacının dalıncan olsun... Pəs, dostum, doğru deyiblər ki, əlhəqq mürrün (doğru söz acı olur). Amma bizə hökm olub ki: qülil-həqq və löv kanə mürrün (deyin sözün doğrusunu acı da olsa)!”

Söz yox ki, bəylərin, mülkədarların əlində cəmləşən torpaqların onların əlindən alınaraq kəndlilərin xüsusi mülkiyyətinə, istifadəsinə verilməsinə çox cidd-cəhd göstərirdin. Təhqirlərə, təzyiqlərə, hədə-qorxulara məruz qalsan da, bir kəndli ideoloqu kimi onlara hüquqlarını anladır, qorxmazlığın və cəsurluğunla qoluzorlulara qarşı çıxır, kəndlini aldadan, əməyini istismar edənlərlə mübarizə aparırdın.

Nəhayət, Həsən bəy, bunu əvvəldən anlamalı idik ki, çarizm doğru söz danışanların dilini kəsdiyi, susdurduğu halda, təbii ki, milli mətbuat yaratmaq təşəbbüsündə olanlara imkan verməzdi. Çünki bunun nə ilə nəticələnəcəyini yaxşı bilirdi. Avropada, Rusiyada – gözünün qarşısında milli mətbuatının yaranmasının xalqa, millətə müsbət nəticələrini görür, müstəmləkə siyasətində bunun heç də yaxşı nəticə verməyəcəyini, sözün kütlələrin şüurunda inqilab yaradacağını gün kimi aydın bilirdi. Elə məhz buna görə də ictimai quruluşda dönüş yarana biləcəyinə əmin olan çarizmin ən ehtiyat etdiyi sahə mətbuat idi. Bax bunlara görə sən o qədər incidildin, acılar çəkməyə məhkum olundun... Amma qalib gəldin...

148-dən ötən 365-lərdə nələr, nələr oldu... Bitdimi sandın, ustad?.. Mübarizə apardığın çarizmin mürtəce ünsürlərinin yerini sənin vəfatından cəmi 10 il sonra yeni bir “ittifaq” burjuaziyası aldı. Düz 70 il... Əgər sənin dövründəki çarizm siyasətini 70 il əsarətində yaşadığımız sovetlər birliyinin müstəmləkəçilik siyasəti ilə müqayisə etsək, xalqın eyni bəlalara düçar olduğunun, nəyi əldə etməkdə ləngidiyinin yalnız bu siyasətlə bağlı olduğunu aydınca görərik. Məgər 1917-18-ci illərdən 1990-cı illərədək xalqın yaşadıqları – müstəqilliyinin zorla əlindən alınması, 70 il rus imperiyasının əsarətində yaşaması, torpaqlarının ermeni əli ilə işğalı, repressiyalar, ləkələr, qırğınlar, qanlar, xalqın saysız-hesabsız şəhid verməsi tarixən davam etdirilən bu siyasətin bəhrələri deyildimi? Bu xalqın başının çəkmədiyi bəlalar qalmadı.

Həsən bəy, banisi olduğun milli mətbuatın milli azadlıq hərəkatında nə qədər böyük rolu oldu, bilirsənmi? Qanında onsuz da azadlıq toxumu olan və mətbu çağırışlarla bu toxumların cücərərək azadlıq fədailərinə çevirdiyi azərbaycanlılar qanlar, qırğınlar bahasına 1991-ci ildə müstəqillik əldə etdilər. Müstəmləkədən yaxa qurtardıq, müstəqil olduq. Lakin birinci – 1918-ci ildə qazandığımız müstəqillik qədər itirilmək təhlükəsində idi budəfəki müstəqilliyimiz də. Təsadüfə bax, elə mətbuat günündə – 22 iyulda gəldi xilaskarımız – böyük şəxsiyyət Heydər Əliyev. Vətəninin dar günündə – Azərbaycanı düşdüyü bəlalardan xilas etmək, müstəqilliyini qorumaq üçün gəldi. Bu gəlişlə xalq da xilas oldu, müstəqilliyimiz də, xilaskarın özü isə xalqın Ümummilli Liderinə çevrildi. O Xilaskar sənin yaratdığın mətbuatın əsl dostu, qədirbiləni oldu. O gəlişlə ölkəmizdə azad mətbuat formalaşdı, mətbuat üzərindəki 70 illik senzura sistemi ləğv edildi. Yüzlərlə qəzet redaksiyaları yarandı. Jurnalistlərə söz, mətbuat azadlığı verildi. Onlar üçün fəxri adlar təsis olundu, əməkləri qiymətləndirildi, mənzil-məişət şəraitləri yaxşılaşdırıldı. Jurnalistlərin hər hansı problemini deyə biləcəkləri ünvan – Mətbuat Şurası, daha sonra Medianın İnkişafı Agentliyi yaradıldı. Ən qürur duyulası hal isə o oldu ki, jurnalistlər dördüncü hakimiyyətin nümayəndələrinə çevrilib birinci hakimiyyətin bütün sahələrdə köməkçiləri oldular.




Həsən bəy, ötən 365-lərdə “Əkinçi”nin yubileyləri haqqında sərəncamlar imzalanıb, təntənəli bayram tədbirləri keçirilib. 2020-ci ildə “Əkinçi”mizin – Azərbaycan mətbuatının yubileyini qeyd etdik. Ölkəmizin Prezidenti cənab İlham Əliyev “Azərbaycan mətbuatının 145 illik yubileyinin keçirilməsi haqqında” Sərəncam imzaladı. “145 il əvvəl – 1875-ci il iyulun 22-də görkəmli ziyalı və maarifçi-publisist Həsən bəy Zərdabi tərəfindən Azərbaycan dilində nəşr olunmağa başlamış “Əkinçi” qəzeti milli mətbuatımızın ilk nümunəsi və həmin dövr Azərbaycanın ictimai-siyasi həyatının mühüm hadisəsi kimi tarixə düşmüşdür. Sonrakı illərdə çoxsaylı nəşrlərlə zənginləşən milli mətbuatımız Azərbaycan ədəbi dilinin və maarifçilik hərəkatının inkişafına əhəmiyyətli töhfələr vermiş, milli özünüdərk və istiqlal məfkurəsinin formalaşmasında, qabaqcıl ideyaların təbliğində böyük xidmətlər göstərmişdir”. Sərəncamda deyilən bu sözlər mətbuatımızın dünəninə – sənə – Həsən bəy Zərdabi şəxsiyyətinə və bugününə – biz jurnalistlərə verilən böyük dəyərdir.

Ey böyük ustad, ey böyük sələf, 32 yaşlı xələfin “Səs” qəzetindən də xəbər almaq istəyərsən, bilirəm. Odur ki, mən danışım, sən dinlə. Ölkəmizdə “Səs” kimi həm müstəqilliyimizlə yaşıd, həm də müstəqilliyimizin bərpasında, ondan sonrakı Azərbaycanın mürəkkəb ictimai-siyasi həyatında sözünü deməyi bacaran çox az sayda qəzet var. “Səs” qəzeti respublikanın ağır günlərində bir qrup ziyalının Ümummilli Lider Heydər Əliyevə təkidlə Bakıya-hakimiyyətə gəlməsi üçün ünvanladığı məktubu və onun cavabını çəkinmədən səhifələrində nəşr edən qəzetdir. Hansı ki, həmin dövrdə buna və digər haqlı səsinə görə təzyiqlərlə, təhdidlərlə qarşılaşmalı olmuşdu. Lakin “Səs” bugünkü Azərbaycan üçün hələ 30 il əvvəl öz haqq səsini qaldırmış, böyük uzaqgörənliklə Ulu Öndərimizin mövqeyindən çıxış edərək xalqın qurtuluşunu böyük Liderdə görmüşdür. Sonrakı illərdə də qəzet missiyasını layaqətlə yerinə yetirmiş, dövlət siyasətinin düzgün təbliğatçısına çevrilmişdir.

Bu qəzet sənin ənənələrinə sadiqliyi ilə bir qərinədir ki, ölkəmizin dünənindən bu gününə, bu günündən gələcəyə öz saldığı körpü ilə yollanır. Bu qəzet artıq qəzetlikdən məktəbədək ucalıb. Ölkəmizdə nə ziyalılar həyat yollarına bu qəzetin cığırıyla çıxıblar, ictimai-siyasi həyatın aparıcı qüvvələrinə çevriliblər. Ulu Öndərimiz də vaxtilə bu qəzetə yüksək qiymət verərək demişdir: “”Səs” qəzeti mənim üçün çox əziz və artıq Partiyamızın tarixində möhtəbər yer tutmuş qəzetdir. Bu qəzet qorxmadan ziyalıların mənə müraciətini və mənim cavabımı dərc edib İndi də durmadan modernləşir, yaxşılaşır, arzum budur ki, daha da modernləşsin, yaxşılaşsın ”.

Həsən bəy, Azərbaycan mətbuatı ötən 30 ildən artıq dövrdə çətin və sınaqlarla dolu bir yol keçib. Yuxarıda da qeyd etdiyim 70 il, onun ardınca 1918-ci ildə qazandığımız, lakin əlimizdən alınan müstəqilliyimizin 1991-ci ildə bərpası illərindən üzü bu yana nə tarixi hadisələrlə qarşılaşıb. Bütün bu hadisələr kütləvi informasiya vasitələri tərəfindən tarixin səhifələrinə köçürülüb. Biz jurnalistlər 90-cı illərdə Birinci Vətən Müharibəsini, bu xalqın acılarını, başına gətirilən min bir oyunu qələmə almışıq. Həmin müharibədə verdiyimiz minlərlə şəhiddən, sağlamlığını itirən minlərlə qazidən yazanlar olmuşuq. Bu xalq 90-cı illərdə torpaq itirib, biz o torpaqlara həsrət soydaşlarımızdan, qaçqın, köçkün, didərgin statusu ilə yaşayan insanlardan ürək ağrısı ilə yazanlar olmuşuq.

Zəfərəqədərki 18 ildə dövlətimizin başçısı torpaqlarımızın qaytarılması üçün bütün beynəlxalq qurumlara üz tutdu. Lakin bizim haqq səsimizə səs verən olmadı. Biz jurnalistlər dövlət rəhbəri tərəfindən ölkəmizin inkişafı, eyni zamanda onunla paralel aparılan ordu quruculuğu, torpaqlarımızın geri alınması üçün görülən tədbirlərdən davamlı yazmışıq.

Həsən bəy, bilirsənmi, 2020-ci ildə, “Əkinçi”nin 145 illik yubileyindən cəmi 2 ay sonra nə baş verdi? Səbir kasamız daşdı. Ermənilərin yeni torpaq iddiaları ortaya çıxdı. Dövlətimizin başçısı onları susdurmağın vaxtı çatdığını bəyan etdi və İkinci Vətən Müharibəsi başlandı. Xalq öz Liderinin ətrafında birləşib “dəmir yumruğ”a çevrilərək onu düşmənin başına endirdi. Bütün dünya Azərbaycanın hərbi taktikasına, birliyinə, həmrəyliyinə heyran qaldı. Biz 2020-ci ilin payızının 44 günü ərzində düşmən üzərində Zəfər çaldıq. Bu dəfə də minlərlə şəhidimiz, qazimiz oldu. Lakin şərəf işimizi həll etdik, torpaqlarımızı geri aldıq. Neçə jurnalistimiz cəbhədən reportaj hazırlayarkən şəhid oldu. Bütün şəhidlərimiz, həm də həmkarlarımız üçün çox kədərləndik, lakin Zəfərimiz üçün də çox sevindik. Biz oğullu-qızlı- hamımız canımızdan keçməyə hazırıq. Təki bir qarış torpağımız düşmən əlinə keçməsin. Axı torpaq namusdur.

Həsən bəy, bilirsənmi, biz necə xoşbəxt jurnalistlərik? Çünki Zəfərdən, qələbədən yazmaq nəsibimiz oldu. O torpaqlara gedib onları görmək qismətimiz oldu. Düşmən o yerlərdə daşı daş üstündə qoymayıb, xəbərin olsun. Lakin o torpaqların ətri eyni ətirdir: doğma ətir... Biz artıq Qarabağa qayıdırıq, Böyük Qayıdış başlanıb. Zəngilanın Ağalı kəndinin sakinləri, laçınlıların, ağdamlıların bir qismi dədə-baba yurdlarına qayıdıblar. Qarabağda bərpa işləri sürətlə aparılır. Yaxın gələcəkdə bütün rayonların sakinləri öz evlərinə qayıda biləcəklər. Bütün bunlardan mərhələli şəkildə yazmaq, bilirsənmi, nə qədər xoşdur?

Bütün bunları sənə çatdırmağımdan yəqin çox məmnun qaldın, Həsən bəy. Çünki ruhun narahat idi. Yaratdığın mətbu orqanın davamçılarının 30 ildə dayanmadan-durmadan bu mövzuda yazmaları böyük əndişənə çevrilmişdi. Gözün aydın, gözümüz aydın, ta torpaqlarımız azaddır.

Böyük ustad, ruhun şad olsun, qəbrin nurla dolsun. Çox xoşbəxt insanmışsan. Xoşbəxtsən, ona görə ki, əsr yarıma yaxın bir dövrün yaddaşlarda qalanı, xatırlananısan. Həm də həyatın ən vacib sahəsi, insanlara hava və su qədər vacib olan mətbuatda. Xoşbəxtliyin bir də ondadır ki, 148 il öncə “Əkinçi” ilə birgə səpdiyin toxum 148-dən ötən hər 365-də elə inkişaf edib, şaxələnib, köklənib, cəmiyyətin elə bir gərəkli sahəsinə çevrilib ki, indi artıq heç kim həyatını mətbuatsız təsəvvür edə bilmir...

**Mətanət Məmmədova**

***Həftə səkkiz, mən doqquz "Osmanqızı TV"də Azərbaycan əleyhinə şər-böhtanlar yağdıran Əli Kərimli tərəfindən təlimatlandırılan Tofiq Yaqublunun Xankəndi separatçılarının qondarma başçısı Araik Arutyunyanın dili ilə danışması, "Dağlıq Qarabağ ermənilərinin statusu olmalıdır" söyləməsi belə bir şübhə yaradır ki, illərdən bəri dağıdıcı müxalifət düşərgəsindəki partiyalar arasında yerdəyişmələr üzrə çempion olan Tofiq Yaqublu həm də Rusiyanın adamı Ruben Vardanyandan, hətta Azərbaycanın qatı düşməni Fransa Prezidenti Emmanuel Makrondan da təlimat ( yəni, qrant) alır. Tofiq Yaqublunun dilinin əzbəri olan və erməni sevgisindən qaynaqlanan "status" məsələsi bu milli xəyanətkarın yaralı yeridir. SİA mövzu ilə bağlı siyasi ekspertlərin rəyini öyrənib.***





# “Tofiq Yaqublu və onun kimilər hətərəm-pətərəm danışmasınlar!”



Milli Məclisin deputatı Elşən Musayev: “Tofiq Yaqublu yenə “gül vurub” və əmin olun ki, bunu qəsdən edib! Çünki Tofiq və onun kimilər eynən erməni kimi düşünürlər, erməni kimi yaşayırlar, erməni kimi arzulayırlar. Əsas səbəb bax budur!

Yaqublu hansı statusdan danışıb? Nə məqsədlə danışıb? Niyə danışıb? Səbəb nədir? – Bax bu sualların cavabı verilməlidir. Üstəlik, təcili! Hər halda yenə nəsə oyun qurublar və bu açıqlama hansısa növbəti riyakar gedişə, alçaq məqsədə hesablanıb. Ssenari isə heç şübhə etmirəm ki, anti-milli ünsür, satqınbaşı Əli Kərimli tərəfindən yazılıb. Yəqin erməni dostlarına, həmfikirlərinə əvvəldən söz veriblər ki, belə bir məsələni ortalığa atacayıq, siz də dəstək olarsız. Zatən Əli Kərimlinin oğlu erməni lobbisi ilə sıx işləyir və lazımi məlumatları onlardan atasına, atasından da onlara ötürür. Yəni, ailədən seçdikləri koordinator da var.

50 dəfə deyilib ki, heç bir statusdan söhbət gedə bilməz. Status ola bilməz. Qarabağda yaşayan ermənilər yalnız Azərbaycan vətəndaşlığını qəbul edəcəkləri halda bütün imtiyazlardan istifadə edə bilərlər. Vəssalam! Başqa alternativ yoxdur. Ola bilməz! Tofiq Yaqublu və onun kimilər də məlum həqiqəti dərk etsinlər, anlasınlar və bundan sonra hətərəm-pətərəm danışmasınlar!”.

Milli Məclisin deputatı Tahir Kərimli: ”Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev böyük cəsarətlə bildirib ki, ermənilərin statusu cəhənnəmə gedib. Bundan sonra heç bir statusdan söhbət gedə bilməz. Sadəcə olaraq bu mərd hadisəni müxalifət, o cümlədən Tofiq Yaqublu heç cür həzm edə bilmir. Ötən gün Sevinc Osmanqızının verilişində bildirilib ki, Azərbaycanda yaşayan bütün xalqlara status vermək lazımdır. Onlar birbaşa ermənilərin və Qərbin istəyi yönündə fəaliyyət göstərirlər. Blogger Vidadi İsgəndərli dedi ki, Sevinc Osmanqızı və digərlərinə Azərbaycan əleyhinə fəaliyyətə görə külli miqdarda pul ayrılır. Onlar özləri də açıq şəkildə bildirirlər ki, Qərbin və ermənilərin pulu ilə Azərbaycan dövləti əleyhinə xidmət göstərirlər. Ona görə də onların heç birinə güvənmək olmaz. Bu, Azərbaycana böyük bir zərbədir. Azərbaycan Respublikasının qanunu ilə Dağlıq Qarabağ statusu ləğv olunub və Prezidentin fərmanı ilə Qarabağ iqtisadi rayonu yaradılıb. Ermənilər ölkəmizdə yaşayan heç bir millətdən artıq deyil. Azərbaycan Federasiyaya çevrilə bilməz. Ona görə də ermənilərin çıxış yolu Azərbaycan vətəndaşlığını qəbul etməkdir”.

**Ləman Sərraf**

# Nigar Rəfibəyli - 110

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, tərcüməçi, Əməkdar mədəniyyət işçisi, Xalq şairi Nigar Rəfibəylinin anadan olmasından 110 il ötür. Azərbaycan milli ədəbiyyatını zərif lirikanın dəyərli nümunələri ilə zənginləşdirən Nigar Rəfibəylinin yaradıcılıq qayəsinin əsasını vətənə bağlılıq, insanın mənəvi ucalığı təşkil edir. Nigar Rəfibəyli Azərbaycan ədəbiyyatında öz səsi, sözü olan şairdir. Onun özünəməxsus deyim, ifadə tərzi vardır. Onun poeziyası insanların qəlbinə yol tapan kövrək, lakin davamlı, oxucusunu uzun müddət təsir

## Rəfibəylilər şəcərəsinin davamçısı

altında saxlamağı bacaran bir poeziyadır. Nigar xanımın həyatının yarım əsrini həsr etdiyi, sevə-sevə yazıb yaratdığı və sevilə-sevilə oxunan şeirlərinin külliyyatı vətən torpağının gözəlliyinə - gülü, çiçəyi, dənizi, bağı, meşəsi, fəsillərin özünəməxsus çalarları, dünyamızda baş verən fərəhli və nisgilli hadisələr, ən başlıcası, insanlar, onların taleyi, mənəvi aləminə həsr olunub. Bütün bunlar kövrək qəlbli şairənin hissini, şüurunu ehtizaza gətirib, gördükləri şeirə çevrilib. Daim nikbin olan Nigar Rəfibəylinin ən kədərli şeirində belə ümidli günəşin şəfəqləri duyulur. Misraların ahəngində dan yerinin ağardığını görürsən. Çünki, onun şeirləri saf bir nəfəsdən, könüldən doğan və ürəyə ünvanlanan bahar nəğmələri kimi yaşıldır. Bu şeirlərin ahəngində qəribə bir zəriflik duyulur. Nigar xanımın lirikası geniş lirikadır. Onun palitrasındakı rənglər yalnız məhəbbətin tərənnümü, hicran yanğısının təsviri üçün deyil. Bu rənglər həyatın daha əlvan hadisələrinin inikası üçün, ictimai həyatda, insanlar arasındakı münasibətlərdə yol verilən haqsızlıqların ifadəsi, köməksizlərin müdafiəsi, ahəngdarlığın qorunması üçündür.

Belə yaradıcılıq yoluna, sənət ucalığına sahib olan, Azərbaycan ədəbiyyatının inkişafında mühüm xidmətləri olan xalq şairi Nigar Rəfibəylinin sənət yolu daim diqqətdədir. Azərbaycanın xalq şairi Nigar Rəfibəyli 1913-cü ilin 23 iyul tarixində Gəncə şəhərində anadan olub. 1930-cu ildə Bakı Pedaqoji Texnikumunda təhsil alan Nigar xanım 1931-ci ildən əmək fəaliyyətinə başlayıb və "Azərnəşr"də bədii ədəbiyyat şöbəsində tərcüməçi və redaktor kimi çalışıb. Nigar Rəfibəyli sonradan Moskva Pedaqoji İnstitutunda təhsilini davam etdirib. Yaradıcılıq uğurlarına tələbəlik illərində nail olub. Hələ Moskvada təhsil alarkən 1934-cü ildə Bakıda ilk şeirlər məcmuəsi çapdan çıxıb. "Çadra" adlı ilk şeiri isə 1928-ci ildə "Dan ulduzu" jurnalında dərc edilib. 1934-cü ildə nəşr olunan ilk "Şeirlər" kitabı Azərbaycan qadınlarının yeni həyat quruculuğunda iştirakından bəhs edir.

Azərbaycanla bağlı müxtəlif mövzular əsasında yazıb-yaradan Nigar xanım dünya xalqlarının da həyatından, faciəli anlarından bəhs edən şeirləri ilə çıxış edib. Belə ki. onun "Dolores İbarruri" şeiri ispan xalqının faşizmə qarşı qəhrəmanlıq mübarizəsinə həsr olunmuşdur. "Cəmilə" şeiri isə Əlcəzair xalqının milli azadlıq mübarizəsindən bəhs edən qüvvətli lirik əsərlərindəndir.

Yaradıcılıqla məşğul olan Nigar Rəfibəyli 1937-1939-cu illərdə "Uşaqgəncnəşr"də bədii ədəbiyyat şöbəsində redaktor vəzifəsində çalışıb. 1940-cı ildən ömrünün sonunadək bütün qüvvəsini yaradıcılıq işinə həsr edərək, qardaş xalqlar ədəbiyyatından (Nəvai, Şiller, Puşkin, Lermantov, Çexov, Şevçenko və başqaları) bədii tərcümələr etməklə milli mədəniyyət xəzinəmizi zənginləşdirmişdir. Yaradıcılıq dövründə Nigar Rəfibəyli xidmətlərinə görə "Şərəf" nişanı ordeni və medallarla təltif olunmuşdur.

Nigar Rəfibəylinin həyat və yaradıcılığı, onun həzin hislər və incə duyğular tərənnüm edən poeziyası nəinki milli ədəbiyyat tariximizdə özünəməxsus yer tutmuş, eyni zamanda böyük şair, ictimai xadim Rəsul Rzanın həyat və yaradıcılığına belə əsaslı təsir etmişdir. Azərbaycanın xalq şairi Rəsul Rza ilə birlikdə Azərbaycan ədəbiyyatının yüksəlməsində





xüsusi rol oynamışdır. Bu ailənin övladı Azərbaycan xalq yazıçısı, Yazıçılar Birliyinin sədri Anar da öz əcdadlarının, anasının, atasının sənət yolunu davam etdirir və Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişafına öz xidmətlərini göstərir. Bir ailənin üç üzvü Azərbaycanın sevilən-seçilən nümayəndəsinə çevrilib. Bir ailədə üç xalq yazıçısı - Rəsul Rza, Nigar xanım Rəfibəyli, Anar. Bu əlbəttə ki, bir şəcərənin tarixi üçün böyük bir salnamədir.

Nigar xanım tanınmış, Azərbaycan həyatında rol oynamış bir ailənin yetirməsi idi. Gəncənin böyük Rəfibəylilər ailəsinin, sülaləsinin çox parlaq nümayəndəsi idi Nigar Rəfibəyli. Ulu Öndər Heydər Əliyev Gəncə səfəri zamanı Sərdar bağında Nigar xanım Rəfibəylinin abidəsinin açılış mərasimində iştirak edərkən çıxışında Gəncənin tarixi haqqında danışaraq Rəfibəylilərin xüsusi yerini qeyd edir. Nigar xanımın da bu şəcərənin davamçısı olaraq Azərbaycan xalqına sədaqətlə xidmət etdiyini və Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlər göstərdiyini bildirir: «Ancaq onun ailəsinin həyatı da faciəli olmuşdur. Gəncəlilərə həm qəhrəmanlıq qismət olmuşdur, həm də təəssüflər olsun ki, faciələr, repressiyalar da qismət olmuşdur. İyirminci illərin repressiyalarında, otuzuncu illərin repressiyalarında çox dəyərli gəncəlilər - ziyalılar məhv edilmişdilər. Onlardan biri də Nigar xanımın atası Xudadat bəy Rəfibəyli Azərbaycanın ilk müstəqil hökumətində, Xalq Cümhuriyyətində nazir vəzifəsini tutmuş bir insan, sonra repressiya qurbanı olmuşdur. Ancaq tarix hər şeyi öz yerinə qoyur. Repressiya qurbanı olmuş Xudadat bəy Rəfibəylinin qızı Nigar xanım Rəfibəyli böyük yol keçmiş, Azərbaycan mədəniyyətinin inkişaf etməsi uğrunda çalışmışdır».

Həqiqətən də orijinal yaradıcılığ imkanlarına malik olan Nigar Rəfibəylinin şeirləri Azərbaycan ədəbiyyatında özünəməxsusluğu ilə seçilir. Onun poeziyasında insana məhəbbət anlayışı genişdir. Əsl humanist şairlər kimi, Nigar xanım da bütün əməksevər, sülhsevər insanları sevir, onları xoşbəxt görmək istəyirdi. Nigar Rəfibəyli son dərəcə həssas, qayğıkeş, mülayim, kövrək qəlbli bir insan idi. Həyatı, insanları bu qədər dərindən sevən, onları ilhamla tərənnüm edən, səmanı aydın, günəşi parlaq, gülləri ətirli, insanları kamil görmək istəyən şairənin bu gün də qulaqlarımızda əks edən səsi həqiqi sənətkarın, kamil insanın könül arzularıdır.

Nigar Rəfibəyli Azərbaycanın şair qadınları arasında öz zərif duyğusu və intellektual səviyyəsi ilə seçilir. Onun şeirlərində Azərbaycan qadınlarının sevgi və zəhmət dünyası, ağrı və acıları bütün əlvanlığı ilə qələmə alınmışdır. Şairin bənzərsiz, yüksək metodik ahəngə və dəyərli sözə malik olan nəğmələri çoxdur.

Nədən yazmağından asılı olmayaraq, Nigar Rəfibəylinin poeziyasında daim müraciət olunan bir mövzu həmişə diqqət çəkib. Bu ana məhəbbəti, qadın səadəti, övlad sevgisidir. Nigar Rəfibəyli yaradıcılığında ana mövzusunun xüsusi yeri var. Övlad, ana məhəbbəti, onun şeirində Tanrı zirvəsinə qalxa biləcək bir dünyadır:

*Döyür pəncərəmi bir acı ruzigar,*
*Bayırda bu axşam yenə boran var.*
*Bürüyüb qəlbimi coşqun arzular,*
*Çəkilib gözümün yuxusu, ana.*

Nigar Rəfibəylinin yaradıcılığı incə saf duyğulardan ibarətdir. Bəzən şeirlərdə həyatın və ovqatın poetik mənzərəsi adamı heyrətə gətirir. Nigar xanımın şeirləri sadəliyi, səmimiliyi, təbiiliyi ilə diqqəti cəlb edir. Bunlar asanlıqla oxucuların qəlbinə yol tapır, onları düşündürmək, həyəcanlandırmaq iqtidarındadır.

Zərif duyğularının poetik şəkildə təsirli ifadəsinə, həyatın adilikləri içərisində heyrətedici məqamları görə bilməsinə və bunun da nəticəsində qələmə aldığı şeirlərində insanın ruhunu dilə gətirən, ona romantik duyğular aşılayan, düşündürən Nigar Rəfibəyli Azərbaycan poeziyasında öz dəst-xəttinə malik unudulmaz söz sahiblərindən biridir.

Çoxşaxəli yaradıcılığı ilə ədəbiyyat tariximizdə silinməz izlər salan Nigar Rəfibəyli oxunan və həm də çox sevilən şairlərdən biridir. Könlü gözəllik vurğunu olan, dillər əzbəri nəğmələri ilə daim xatırlanan Nigar Rəfibəylinin yaradıcılığı başdan-ayağa duyğulardan ibarətdir. Nigar xanımın yaradıcılığı bir neçə cəhətdən maraqlıdır. Hər şeydən əvvəl isə o, gözəl nəğmələrin, heç zaman unudulmayan, həmişə təzə-tər səslənən mahnıların müəllifidir. Azərbaycanın görkəmli bəstəkarları şairin şeirlərinə müraciət ediblər: Niyazi, Fikrət Əmirov, Səid Rüstəmov, Cahangir Cahangirov, Tofiq Quliyev, Emin Sabitoğlu, Polad Bülbüloğlu və başqaları.

Nicar Rəfibəylinin təbiət mənzərələri, mənəvi zənginlik, vətənpərvərlik, sülh, demokratiya, azadlıq ideyaları tərənnüm olunan «Dənizin səsi gəlir», «İşıqlı dünyam», «Günəşdən gənclik istədim», «Həzin bir axşamda düşsən yadıma», «Şanlı nəsillərin yadigarısan» müharibə mövzusuna və müharibə əleyhinə həsr olunan «Zəfər nəğməsi», «Anaların səsi», uşaqlar üçün yazdığı «Balaca qəhrəman», «Günəşin cavabı», «Məstanın balaları», «Bizə bahar yaraşır» kitabları da ədəbiyyatımızı zənginləşdirmişdir.

Nigar Rəfibəyli Məhsəti Gəncəvinin rübailərini, Evripidin "İfigeniya", F.Şillerin "Məkr və məhəbbət", A.P.Çexovun "Vanya dayı", "Albalı bağı" dramalarını, E.L.Voyniçin "Ovod", O.Qonçarın "Bayraqdarlar" romanlarını, Ə.Nəvai, A.S.Puşkin, M.Y.Lermontov, T.Q.Şevçenko, Ş.Petöfi, A.Mitskeviç, A.Sereteli və başqalarının əsərlərini tərcümə etmişdir. Eyni zamanda əsərləri xarici dillərə tərcümə olunub.

Gözəl insan, unudulmaz şairimiz Nigar xanım Rəfibəyli 1981-ci il iyulun 10-da Bakıda vəfat edib və Fəxri Xiyabanda dəfn olunub. Hazırda Bakı küçələrindən biri onun adını daşıyır. Nigar Rəfibəyli Azərbaycan ədəbiyyatına şair, tərcüməçi, Azərbaycanın əməkdar mədəniyyət işçisi, Azərbaycanın xalq şairi kimi iz salıb.

***Zümrüd BAYRAMOVA***



# AQTA və AİBNDX hara baxır?..

**Mətanət Məmmədova**

***Səhər işə gəlirdim. "Sahil" metrosunun çıxışının solundakı ilk marketdən su almaq üçün içəriyə keçdim. 0,5 litrlik bir su şüşəsi götürdüm və kassaya yaxınlaşdım. Qiymətini soruşdum, kassada əyləşən bəy buyurdu ki, 1 manatdır. Dedim, ola bilməz. Satıcı dedi ki, elədir. İstəyirsiniz, sistemdə də baxın. Sonra da vurğuladı ki, 70 qəpiyə də su var. Lakin sizin götürdüyünüz su 1 manatdır.***

İşə tələsirdim, dəyişmədim, 1 manat verib çıxdım. Yolboyu öz-özümə deyindim ki, İlahi, biz nə edirik? İnsafı, dini ayaqlayıb, Allahın bir ovuc suyunu 1 manata satırıq. Gəlib işə çatdım. Otaq yoldaşlarımla suyun müzakirəsinə başladıq. Bu arada su şüşəsini əlimə alıb harada istehsal olduğunu bilmək istədim. Bir də dedim görüm, bu suyun hansı özəlliyi var ki, digərlərindən fərqli olaraq 1 manata satılır. Ölkəmizdə benzinin 1 litrinin 1 manata, suyun isə yarım litrinin 1 manata olması, sözün həqiqi mənasında, məni çox maraqlandırdı deyim, narahat etdi deyil, bilmirəm. Deməli, suyun 1 litri benzindən bir qat da baha-2 manatdır...

Su Gədəbəy rayonunun Zəhmət kəndinə məxsusdur. Şüşənin üzərində isə belə yazılıb: Slavyanka.Welcome to Azerbaijan. Bu arada gözüm sataşdı ki, su 15.07.22-də buraxılıb, 23.06.23-ə qədər vaxtı varmış. Və anladım ki, 1 manata vaxtı ötmüş 0,5 litr su almışam. Həm də başqalarından heç nəyi ilə fərqlənməyən adi su.

Maşallah, bizdəki ticarətdən ola bilməz. Birinci şüşənin üzərində yazılanlara diqqət yetirək: Slavyanka.Welcome to Azerbaijan. Bu qiymətə su alan turistə heç inanmıram ki, Azərbaycan xoş gələ. Və o, bir də bu ölkənin adını çəkə. Yazıq turist gərək cibindəki pulu ancaq suya xərcləyə.

Digər tərəfdən, ölkəmizdə suyun 0,5 litrinin 1 manata satışı hansı ədalətə, qanuna sığır, bunu anlamaq istəyirəm. Bəs görəsən mağazalarda satılan ərzaq və digər məhsulların keyfiyyətinə məsul olan Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi(AQTA) və qiymətlərə nəzarət edən İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti (AİBNDX) hara baxır ki, bu qədər özbaşınalıq hökm sürür.

Belə çıxır ki, küçədə bu istidə yan-yaxıl, lakin bir su alıb içmə. Çünki su səni sərinlətməyəcək, əksinə odlayacaq.

Tək su deyil, ölkəmizdə əksər market və ərzaq mağazalarında xüsusi özbaşınalıq hökm sürür. Hər yerdə qiymətlər müxtəlif cür təklif olunur. Yay fəslini nəzərə alsaq, xüsusilə sərinləşdirici sular, dondurmalar od qiymətinədir. Bütün bunlar isə yuxarıda adlarını çəkdiyimiz qurumların təbii ki, öz işlərinə biganə münasibətindən başqa bir şey deyil.

Kim nəyi hansı qiymətə istəyirsə, sata bilməz. İnsanları köhnə məhsullarla aldada, zəhərləyə bilməz. Dövlət bunlara nəzarət üçün qurumlar yaradıb. Bəs onlar haraya baxırlar? Yəqin havaların isti keçməsi onların iş ahənginə də təsir edib. Yoxsa market alıcıya vaxtı bir ayadək ötmüş köhnə suyu, həm də 1 manata sata bilməzdi.

Ümidvarıq ki, AQTA və AİBNDX bir araşdırma aparmağa cəhd edəcək ki, nə üçün ölkəmizdə 0,5 litr su 1 litr benzinin qiymətinədir. Bu məsələ həllini tapanda benzintək alışıb-yanan alıcıların üzərinə çiləməyə su tapılacaq. İnşallah.

# Azərbaycanda dövlət-din münasibətləri





## Prezident İlham Əliyev: "Biz öz milli-mənəvi, dini dəyərlərimizə sadiqik, onları qoruyuruq"

Milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz xalqımızın tarixində, özünüdərkində mühüm əhəmiyyət daşıyır. Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə, istər sovet məkanında, istərsə də müstəqillik dövründə yaşadığımız illərdə milli-mənəvi dəyərlərimizin qorunub-saxlanmasına və inkişafına çox böyük önəm verib. Ulu Öndər Heydər Əliyevin siyasi kursu Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğrula davam etdirilir. Bütün dinlərə hörmətlə yanaşan Azərbaycanın islami dəyərlərə olan münasibəti aydın görünür. Müxtəlif dinlərin məbədlərinə qayğı və diqqət, o cümlədən, dini ocaqlarımıza, məscidlərimizə olan münasibət Azərbaycanda din-dövlət münasibətlərinin və vətəndaş həmrəyliyinin yüksək səviyyəsini nümayiş etdirir. Dövlət başçısı, mütəmadi olaraq, din xadimləri ilə görüşür, dini konfessiyalara maddi yardımlar edilir və dini ibadət yerləri təmir-bərpa olunub, inanclı insanların istifadəsinə verilir. Ölkə ərazisində 2200-dən artıq məscid fəaliyyət göstərir. Respublikamızda həyata keçirilən din siyasəti demokratik dövlət quruculuğu kursuna, eləcə də, dövlət-din münasibətlərinin mənəvi və hüquqi müstəvidə tənzimlənməsi prinsipinə əsaslanır. Ölkəmizdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi fəaliyyət göstərir. Azərbaycan Prezidentinin məlum Fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu yaradılıb. Əsrlərin süzgəcindən keçərək, müasir dövrümüzədək qorunub-saxladığımız milli-mənəvi, dini adət-ənənələrimiz yaşayır və düzgün şəkildə insanlara çatdırılır.





Artıq ölkəmizdə məhərrəm ayı başlayıb. İyulun 19-da Hicri-qəməri təqvimi ilə 1444-cü il başa çatır və 1445-ci il başlayır. Məhərrəm ayının 10-u Aşura günü isə iyulun 28-nə təsadüf edir. Avqustun 17-si Məhərrəm ayı başa çatır və 18-dən Səfər ayı başlayır. Sentyabrın 16-da isə Səfər ayı başa çatacaq. Qeyd edək ki, hər il Məhərrəm ayında, "Aşura" günündə qanvermə aksiyaları keçirilir. Əzadarlıq ayinləri isə qadağan edilir. Kərbəla şəhidləri İslamın "yaxşılığa dəvət və pislikdən çəkindirmə" məfkurəsini bütün ümmət üçün əsl nümunəyə çevirmiş, din, Vətən və ailə şərəfi uğrunda fədakarlığın və mükəmməl əxlaqın parlaq təzahürünü yaradıblar. Bu mənada İmam Hüseyn məktəbi - Allah, Vətən və xalq naminə şəhadətin nümunəvi göstəricisi, mənəvi-əxlaqi dəyərlər müstəvisində danılmaz yeri olan dini-tarixi örnək kimi dəyərləndirilir.

İmam Hüseyn əleyhissalamın müqəddəs xatirəsinin və Kərbəla müsibətinin nəsillərin yaddaşında yaşadılması imanın, əqidəyə sadiqliyin, Vətən, torpaq, ailə naminə şəhidlik məktəbinin əbədi təcəssümüdür.

"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, dini mərasimlər məscid, ziyarətgah və onlara aid ərazilərdə keçiriləcəkdir. Allah yanında imanın, mənəviyyatın yüksək məqamlarından biri – ailə, torpaq və Vətən uğrunda şəhidlikdir. Məhərrəmlik dönəmində ibadət və dualarımızda Kərbəla şəhidləri ilə yanaşı Birinci və İkinci Qarabağ müharibəsində Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman övladlarımızın, həmçinin 20 Yanvar və Xocalı soyqırımı qurbanlarının əziz xatirəsini yad etməklə şəhidlərimizə rəhmət, qazilərimizə şəfalar diləmək bizim vəfa borcumuzdur.

### MƏDSƏD VƏTƏNDAŞLARIN RAHAT İBADƏT ETMƏSİDİR

Bu gün ölkəmizdə bütün dini abidələr dövlət tərəfindən qorunur, bərpa edilir, eləcə də bir çoxları yenidən tikilir. Dövlətimiz tərəfindən tarixi-mədəni irsin, eləcə də dini ziyarətgahların, maddi-mədəniyyət abidələrinin bərpası və mühafizəsi daim diqqət mərkəzində saxlanılır və bu siyasət işğaldan azad olunmuş torpaqlarımızda da uğurla davam etdirilir. Çoxəsrlik tarixə malik olan abidələrimizə, dini ziyarətgahlarımıza, maddi-mədəniyyət abidələrimizə yeni həyat verilir. Azərbaycanda dini abidələrin dövlət tərəfindən qorunması, bərpası və tikintisi milli dəyərlərimizə olan münasibətin təzahürüdür. Müstəqillik dövründə yüzlərlə dini abidələrin bərpası və tikintisi fikrimizi əsaslandırır. Azərbaycan xalqının milli-mənəvi və dini dəyərlərinə böyük ehtiramla yanaşan Ümummilli Lider Heydər Əliyev müstəqilliyin ilk illərində sovet dövründə fəaliyyəti dayandırılmış və yararsız vəziyyətə düşmüş məscidlərin bərpası və yenidən qurulmasına xüsusi önəm verib. Belə ki, Ulu Öndər Heydər Əliyevin imzaladığı Sərəncama əsasən, dağıdılmış tarixi Bibiheybət məscid-ziyarətgah kompleksi yenidən tikilərək 1998-ci ildə istifadəyə verildi. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dini məbədlərin bərpası və təmiri, eləcə də yenidən tikilməsi Prezident İlham Əliyev tərəfindən daha genişmiqyaslı şəkildə davam etdirilir. Tariximiz, xalqımız üçün çox böyük əhəmiyyət daşıyan Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı cümə məscidləri və digər məscidlər yenidən qurulmuş və əsaslı təmir edilib. Bakıdakı Heydər Məscidi, Gəncədə "İmamzadə" kompleksi kimi binalar da Azərbaycan milli memarlığının və incəsənətinin nailiyyətlərinin parlaq nümunələri olmaqla yanaşı, insanların ibadət və dua etmələrinə imkan yaradır.

Azərbaycanda paytaxt Bakının Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsində "Xanım Fatimeyi Zəhra" məscidinin müasir kompleksinin istifadəyə verilməsi müqəddəs dini ibadət və inanc yerlərinin təmiri və bərpasına dövlətimiz tərəfindən ayrılan diqqətin daha bir göstəricisi oldu. Məsciddə eyni vaxtda maksimum 500-550 nəfər ibadət edə bilirdisə. indi daha müasir və geniş məscid kompleksində eyni zamanda, 1800 nəfərin ibadət etməsinə şərait yaradılıb. Əminliklə deyə bilərik ki, dini abidələrimizin təmir və bərpası Azərbaycanda bu sahədə dövlət siyasətinin real mənzərəsinin ifadəsidir.

Bu sahəyə dövlət qayğısının artması dəyərlərimizi dünyada tanıtmaq sahəsində əhəmiyyətli rol oynayır. Təbii ki, görülən bu işlərdə əsas məqsəd vətəndaşların rahat ibadət etmələrini təmin etməkdir.

Ziddiyyətlərlə zəngin iyirmi birinci yüzillikdə Azərbaycan ənənələrinə sadiq qalaraq milli mənəvi dəyərlərə önəm verərək islamofobiya, islam adından sui-istifadə edərək qırğınlar törədənlərə malik olduğu dəyərləri ilə çağırışlar edərək onları sülhə, dostluğa dəvət edir. Azərbaycan Prezidenti Cənab İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "Azərbaycan modeli, Azərbaycan nümunəsi bu gün dünyanın müxtəlif ölkələrində öyrənilir. Bizim bu istiqamətdəki siyasətimiz artıq özünü həm ölkəmizdə, həm bölgədə və həm də dünyada təsdiq etmişdir. Biz öz milli mənəvi, dini dəyərlərimizə sadiqik, onları qoruyuruq, eyni zamanda, müsəlman aləmində həmrəyliyin möhkəmləndirilməsi üçün səylərimizi əsirgəmirik".

**Nəzakət ƏLƏDDİNQIZI**

# Bir Fransa, bir Ermənistan, bir də Tofiq Yaqublu



FELYETON

Vəssalam. Vəssalam ona görə ki, ermənilərə status arzulayan bunlardan başqa kimsə deyil. Bir Fransa, bir Ermənistan, bir də Tofiq Yaqublu. Fransanı başa düşürük. Fransa illərdir Ermənistanın təəssübkeşi idi, ötən illərdən bəri isə əməlli-başlı bacılığı olub. Fransanın başına Azərbaycan boyda daş harada, nə zaman, necə düşüb, deyə bilmərəm, lakin fakt budur ki, düşüb. Odur ki, Azərbaycan həqiqətlərini, ədalətin kimin tərəfində olduğunu görən gözləri illərdir, kor olub.

Deyir, fransız bacıların erməni bacılardan yaman xoşu gəlir. Elə bu səbəbdən də söz veriblər ki, qatığa ölənədək qara deyib duracaqlar. Məsələn, qondarma erməni soyqırımını qəbul etdikləri kimi... Fransa Senatı və Milli Assambleyasının anti-Azərbaycan xarakterli qətnamələri, bu qətnamələrin beynəlxalq hüququn və BMT Nizamnaməsi və qətnamələrinin əksinə olduğu, beynəlxalq hüququ ağır şəkildə pozduğu kimi... Olsun, nə deyirik ki?.. Bir Fransanın qatığa qara deməsi ilə dünyanın bəyaz gördüyü nemət qara olmayacaq ki... Hə, bir də Zəfərimizdən sonra Fransa Qarabağda və Şərqi Zəngəzurda yaşayan ermənilərə status arzulayır. O status ki, dövlətimizin başçısı illərin problemi olan həmin statusu dəmir yumruqla darmadağın edib və cəhənnəmə göndərib.

Deməli, ermənilərə görə bilməyəcəkləri statusu bir Fransa tələb edir, bir sözsüz ki, ağıldankəm Ermənistan, bir də bizim "ağıllı" Tofiq Yaqublu.

Yaxşı, Fransanı da anladıq, Ermənistanı da anladıq. Ermənistanın onsuz da dərd-səri ancaq muxtariyyət olub, respublika yaratmaq olub. Bu arzuları isə yaratdıqları "Arstax"la birlikdə təpələrinə çırpılıb.

Qaldı bu üçlükdən birinin - Tofiq Yaqublunun ermənilərə status arzulaması məsələsi. Hə, bu məsələ də xüsusi nüansları ortalığa çıxarır. Birincisi, bu qənaətə gəlmək olur ki, Tofiq Yaqublu fransız və erməni bacılarla bacılıq olub. İkincisi, 100 faiz ona bu fikrə gəlməsi və fikrini söyləməsi üçün birbaşa Fransadan qrant gəlib. Üçüncüsü, bilə-bilə ki, status cəhənnəmə gedib, ondan bəhs etməsi belə bir fikir yaradır ki, əcaba, Tofiq "bəy" millət dəyişikliyi edibmi? Belə olmasa idi, mümkün olmazdı ki, çıxıb televiziyadan ermənilərə status arzulaya. Hazırda üzvü olduğu "Müsavat" partiyasının AXC partiyası ilə birlikdə 90-cı illərdə ermənilərə satdığı torpaqlarda Tofiq Yaqublu deyilənə görə vaxtilə döyüşüb. Vallah belə də deyirəm, yalançı olaram, vikipediya belə yazır. Bu döyüş hara, döyüşdüyünə status arzulamaq hara, bu, bir qədər müəmmalı məsələ oldu, deyilmi?

Bir azərbaycanlı ermənilərə necə status arzulaya bilər? Məsələnin digər tərəfinə baxaq. Bunun üçün birinci, gərək psixoloji vəziyyətində problem ola. İkinci, xalqından, millətindən, torpağından, şəhidindən, qazindən vaz keçmiş olasan. Üçüncüsü isə azərbaycanlı olduğundan.

Belə isə, necə ağıza alıb danışmaq olar ki, ermənilərə status verilsin. Tofiq Yaqublunu deyərdim ki, bir müayinəyə göndərək. "Həkim müayinəsindən keçirib psixoloji vəziyyətini müəyyənləşdirək" deyə düşünərkən, birdən bundan vaz keçdim. Soruşsanız nə üçün? Cavabım budur ki, gəlin heç də dağa-daşa düşməyək. Nə müayinə, nə xəstəlik? Bu adamı qrant danışdırır, vəssalam.

Sonra düşündüm ki, qoy xalq, millət ayağa qalxıb Tofiq Yaqublunun cavabını versin. Onu ermənilərə status arzulaması üçün ittiham etsin. Minlərlə şəhid, qazinin, 30 illik həsrətin, yerlə yeksan edilmiş tarixi-mədəniyyət abidələrinin, dağıdılmış, viran edilmiş ata-baba yurdlarının, 30 illik məcburi köçkün həyatının fonunda bu adama sual versin ki, sən nə danışırsan? Lakin xatırladım ki, xalq bunların üzərindən 30 ildən artıqdır ki, qara xətt çəkib. İnanmıram ki, onu adam yerinə qoyub hələ bir sual da verələr. Eşidən deyəcək ki, Tofiqdir də, zayıllayır...

***Mətanət Məmmədova***

# Süni intellekt jurnalistlərin işini əlindən alacaq

***"Google"un xəbər məzmunu hazırlaya bilən "Genesis" adlı yeni süni intellekt texnologiyasını sınaqdan keçirdiyi bildirilir. İddialara görə, jurnalistlərə kömək etmək üçün inkişaf etdirilən süni intellekt texnologiyası ABŞ-ın aparıcı qəzetlərindən olan "The New York Times", "The Washington Post" və "The Wall Street Journal"ın sahibi olan "News Corp"un rəhbərlərinə təqdim edilib.***



## *Google xəbər yaza bilən süni intellekt texnologiyasını sınaqdan keçirir*

Bildirilib ki, "Google"un "Genesis" adlandırdığı texnologiya ona verilən istənilən məlumatdan, o cümlədən cari hadisələrdən xəbər mətnləri hazırlaya bilir. "Google" hesab edir ki, jurnalistlər üçün "şəxsi köməkçi" kimi xidmət etmək üçün nəzərdə tutulmuş bu texnologiya daha vacib xəbərlər üçün jurnalistlərin vaxtına qənaət edəcək.





Sözügedən təqdimatda iştirak edən medianın bəzi rəhbər şəxsləri bu ixtiranı "narahatedici" kimi xarakterizə edib və "dəqiq xəbərlərin yazılması üçün bəzi vacib məqamları nəzərdən qaçıra bilər" deyə bildiriblər. "Google" təmsilçisi Jenn Crider, "Genesis, jurnalistlərin məqalələrinin yazılması və redaktə edilməsində əsas rol oynamaq və ya onları əvəz etmək üçün nəzərdə tutulmayıb" deyir.

Nyu-York Şəhər Universitetinin professoru Jeff Jarvis, "Google"un yeni texnologiyasının potensial müsbət və mənfi cəhətləri olduğunu qeyd edir. "Əgər bu texnologiya faktiki məlumatları etibarlı şəkildə təqdim edə bilirsə, jurnalistlər ondan istifadə etməlidirlər" - deyə fikir bildirib. Lakin Jarvis, bəzi xəbərlərin yazılmasında jurnalistlərin və media orqanlarının göstərdiyi həssas münasibəti köməkçi texnologiyanın göstərə bilməyəcəyini vurğulayıb. Bu da, öz növbəsində, media orqanlarının etibarlılığına xələl gətirə bilər.

Dünyadakı nəhəng media orqanları öz xəbər iş proseslərində süni intellekt texnologiyalarından istifadə edib-etməmək barədə müzakirələr aparır. Bəzi KİV-ləri, o cümlədən "The Times", "NPR" radiosu və "Insider" süni intellektin potensiallarını araşdırmaq planlarını açıqlayıblar ki, bunu da "saniyələr və dəqiqliyin çox vacib olduğu xəbər dünyasında necə məsuliyyətlə tətbiq oluna biləcəyini görmək" kimi izah edirlər.

"Associated Press" uzun müddətdir ki, korporativ hesabatlar kimi mövzularda reportaj hazırlamaq üçün süni intellektdən istifadə edir. Agentlik həmçinin xəbər arxivini süni intellekt modeli Chat GPT ilə paylaşacağını açıqlayıb. Digər tərəfdən, "NBC News" və "The Times" kimi media qurumları süni intellektin onların məlumatlarını icazəsiz qeyd etməsinə qarşıdır.

***Lalə Mehralı***



## "BONAFİDE" Qapalı Səhmdar Cəmiyyətinə (VÖEN 1305656601) dair

## MÜSTƏQİL AUDİTORUN RƏYİ

1. **Giriş**

1.1. Biz "BONAFİDE"QSC-nin (bundan sonra – "**Cəmiyyət**") 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, mənfəət və zərər hesabatından, kapitalda dəyişikliklər haqqında hesabatdan, göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan və əhəmiyyətli uçot siyasətləri və izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardıq.

1.2. Hesab edirik ki, maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Kollegiyasının 30.01.2017-ci il tarixli Q-01 nömrəli qərarı ilə təsdiq edilmiş "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Əsasən Mühasibat Uçotunun Aparılması Qaydaları"na uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

2. **Rəy üçün əsaslar**

2.1. Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

3. **Əsas audit məsələləri**

3.1. Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə hesabat dövrünün maliyyə hesabatlarıdır. Bu məsələlər maliyyə hesabatlarının auditi üzrə rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmış və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

4. **Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

4.1. Rəhbərlik maliyyə hesabatlarının Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin Kollegiyasının 30.01.2017-ci il tarixli Q-01 nömrəli qərarı ilə təsdiq edilmiş "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Əsasən Mühasibat Uçotunun Aparılması Qaydaları"na uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə, habelə əhəmiyyətli təhrifi olmayan maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

4.2. Maliyyə hesabatlarını hazırladıqda, Cəmiyyəti ləğv etmək və ya fəaliyyətini dayandırmaq niyyətində olmadığı halda, Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

4.3. İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

5. **Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

5.1. Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

"AUDİT CONSULTİNG 17" MMC-nin (VÖEN: 1503577411)
direktoru, Cəfərov Nazim Suxənvər oğlu

Bakı şəhəri, 22 iyun 2023-cü il

9.4. Azərbaycan Respublikasının cinayət, mülki, vergi, əmək, bank, rəqabət, anti-inhisar və digər qanunvericilik sahələrinə dair məsləhətlərin verilməsi.

10. Emitentin 8 nəfər işçisi vardır. Hesabat dövrü ərzində işçilərin sayında mühüm dəyişiklik olmamışdır.

11. Emitentin idarəetmə orqanları aşağıdakılardan ibarətdir:

11.1. Cəmiyyətin təkbaşçı direktoru: Əyyubov Arif Vahid oğlu

12. Emitentin fiziki şəxs olan 2 səhmdarı mövcuddur. Emitentin hüquqi şəxs olan səhmdarı yoxdur.

13. Emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərə (paylara) malik olan şəxslər üzrə məlumatlar aşağıdakı cədvəldə göstərilib:

| Səhmdarın Soyadı, Adı və Atasının adı | Qiymətli Kağızların Növü | Səhmdara Məxsus Olan Qiymətli Kağızların Sayı | Səhmlərin Nizamnamə Kapitalında Faiz Nisbəti |
|---|---|---|---|
| Mahmudova Səbinə Nəcəf qızı | adi adlı sənədsiz | 50 | 50% (əlli faiz) |
| Sadıxov Cahangir İsmayıl oğlu | adi adlı sənədsiz | 50 | 50% (əlli faiz) |

14. Nizamnamə kapitalında Emitentin payı 5 faizdən az olmayan hüquqi şəxslər haqqında məlumat:

14.1. Emitentin hər hansı digər hüquqi şəxsin kapitalında 5 faizdən az olmayan payı mövcud deyil.

15. Emitentin səhmdarlarının 2022-ci il ərzində keçirilmiş yığıncaqları haqqında məlumat:

15.1. 2022-ci il ərzində Emitentin səhmdarlarının 2 (iki) ümumi yığıncağı keçirilmişdir:

15.1.1. Emitentin səhmdarlarının 1-ci ümumi yığıncağı 16.03.2022-ci il tarixdə Bakı şəhərində keçirilmişdir. Yığıncaqda cəmiyyətin xalis mənfəətinin bölüşdürülməsi haqqında qərar qəbul edilmişdir.

15.1.2. Emitentin səhmdarlarının 2-ci ümumi yığıncağı 13.07.2022-ci il tarixdə Bakı şəhərində keçirilmişdir. Yığıncaqda Emitentin illik maliyyə hesabatlarının təsdiqi haqqında qərar qəbul edilmişdir.

16. Emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat:

16.1. Emitentin adi adlı səhmi (bundan sonra "Səhmlər") dövriyyədədir;

16.2. Səhmlərin dövlət qeydiyyat nömrəsi və dövlət qeydiyyat tarixi: AZ1001023642, 17.11.2021-ci il;

16.3. Səhmlərin miqdarı və nominal dəyəri: 100 (yüz) ədəd, hər bir səhmin nominal dəyəri 20 (iyirmi) manat təşkil edir;

16.4. Səhmlərin məcmu nominal dəyəri: 2000 (iki min) manat;

16.5. 2022-ci il ərzində Emitent tərəfindən Səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat: 2022-ci ildə Emitent tərəfindən səhmlər üzrə 190800 manat dividend ödənilmişdir;

16.6. Yuxarıda qeyd edilən Səhmlər istisna olmaqla, Emitent tərəfindən səhm və ya istiqraz emissiyası həyata keçirilməmişdir;

16.7. Emitentin Səhmlərinin yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer haqqında məlumat: "Bakı Fond Birjası" QSC, Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower) AZ1141.

17. Hesabat dövrü ərzində Emitent tərəfindən xüsusi əhəmiyyətli əqdlər bağlanmamışdır.

18. Hesabat dövrü ərzində Emitent tərəfindən aidiyyəti şəxslərlə əqdlər bağlanmamışdır.

19. Hazırki illik idarəetmə hesabatı Emitentin səhmdarlarının 23 iyun 2023-cü il tarixli növbəti ümumi yığıncağında təsdiq edilmişdir.

20. 2022-ci il üzrə illik idarəetmə hesabatı "Səs" qəzetində dərc ediləcəkdir.

(imza, möhür)
Arif Əyyubov
Emitentin direktoru

(imza)
Səbinə Mahmudova
Emitentin baş mühasibi

### Kapitalda dəyişikliklər haqqında hesabat
31 dekabr 2022-ci il tarixə

**VÖEN** 1 3 0 5 6 5 6 6 0 1

**Mühasibat uçotu subyektinin adı:** "BONAFİDE" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

**Sahə (fəaliyyət növü):** 69100-HÜQUQ SAHƏSİNDƏ FƏALİYYƏT

**Mülkiyyət növü:** Xüsusi mülkiyyət

**Ünvan:** Bakı şəhəri, Səməd Vurğun küçəsi, ev 83,WORLD BUSINESS CENTER ofis 4/3, AZ1014

**Elektron poçt ünvanı:** samahmudova@gmail.com

**Ölçü vahidi:** manat

| Göstəricilər | Nizamnamə kapitalı | Emissiya gəliri | Bölüşdürülməmiş mənfəət /zərər | Cəmi Kapital |
|---|---|---|---|---|
| **31 dekabr 2021- ci il tarixə qaliq** | **10,00** | **0,00** | **158 143,06** | **158 153,06** |
| 2022-ci il üzrə xalis mənfəət | 0,00 | 0,00 | 162 337,18 | **162 337,18** |
| Ödənilmiş dividend | 0,00 | 0,00 | 0,00 | **0,00** |
| Mənfəətdən istifadə | 0,00 | | 0,00 | **0,00** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | 1 990,00 | 0,00 | 0,00 | **1 990,00** |
| **31 dekabr 2022- ci il tarixə qaliq** | **2 000,00** | **0,00** | **320 480,24** | **322 480,24** |

**Əyyubov Arif Vahid oğlu**
**Cəmiyyətin direktoru**

M.Y.

**Mahmudova Səbinə Nəcəf qızı**
**Cəmiyyətin baş mühasibi**

### Pul vəsaitlərinin hərəkəti haqqında hesabat
31 dekabr 2022-ci il tarixə

**VÖEN** 1 3 0 5 6 5 6 6 0 1

**Mühasibat uçotu subyektinin adı:** "BONAFİDE" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

**Sahə (fəaliyyət növü):** 69100-HÜQUQ SAHƏSİNDƏ FƏALİYYƏT

**Mülkiyyət növü:** Xüsusi mülkiyyət

**Ünvan:** Bakı şəhəri, Səməd Vurğun küçəsi, ev 83,WORLD BUSINESS CENTER ofis 4/3, AZ1014

**Elektron poçt ünvanı:** samahmudova@gmail.com

**Ölçü vahidi:** manat

| Göstəricilər | 31 dekabr 2022 |
|---|---|
| **Əməliyyat fəaliyyətində yaranan pul vəsaitlərinin hərəkəti** | |
| İş və xidmətlərin təqdim edilməsi | 613 495,13 |
| Alınmış avans | 13 110,00 |
| İşlərin aparılması və digər xərci | -475 387,95 |
| Mənfəət vergisi | |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklərdən əvvəl əməliyyat** | |
| **fəaliyyətlərindən yaranan pul vəsaitlərinin hərəkəti** | **151 217,18** |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklər** | |
| Ehtiyyatlar artma/azalma | 0,00 |
| Debitor borcları artma/azalma | -96 069,63 |
| Əməliyyat fəaliyyəti üzrə sair aktivlər artma/azalma | -19 584,73 |
| Büdcə üzrə | 88 450,77 |
| Gələcək dövrün gəlirləri | 0,00 |
| Kreditor borclarda arma/azalma | 6 163,57 |
| Əməliyyat fəaliyyəti üzrə sair öhdəliklər artma/azalma | -1 143,96 |
| **Əməliyyat fəaliyyətində yaranan xalis pul vəsaitləri** | **129 033,20** |
| **İnvestisiya fəaliyyətində yaranan pul vəsaitlərinin hərəkəti** | |
| Bina və avadanlıqların satılması | 0,00 |
| Qeyri-maddi aktivlərin silinməsi | 0,00 |
| TTA alınması | -4 663,80 |
| **İnvestisiya fəaliyyətində istifadə olunan xalis pul vəsaitləri** | **-4 663,80** |
| **Maliyyələşdirmə fəaliyyətində yaranan pul vəsaitlərinin hərəkəti** | |
| Ödənilmiş dividend | 0,00 |
| Mənfəətdən istifadə | 0,00 |
| Bank kreditləri | 0,00 |
| **Maliyyələşdirmə fəaliyyətində yaranan xalis pul vəsaitləri** | **0,00** |
| Məzənnə dəyişiklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | 0,00 |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artma (azalma)** | **124 369,40** |
| **İlin əvvəlində pul vəsaitləri və onların ekvivalentləri** | **247 208,97** |
| **İlin sonunda pul vəsaitləri və onların ekvivalentləri** | **371 578,37** |

**Əyyubov Arif Vahid oğlu**
**Cəmiyyətin direktoru**

M.Y.

**Mahmudova Səbinə Nəcəf qızı**
**Cəmiyyətin baş mühasibi**

### Maliyyə vəziyyəti haqqında hesabat
31 dekabr 2022-ci il tarixə

**VÖEN** 1 3 0 5 6 5 6 6 0 1

**Mühasibat uçotu subyektinin adı:** "BONAFİDE" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

**Sahə (fəaliyyət növü):** 69100-HÜQUQ SAHƏSİNDƏ FƏALİYYƏT

**Mülkiyyət növü:** Xüsusi mülkiyyət

**Ünvan:** Bakı şəhəri, Səməd Vurğun küçəsi, ev 83,WORLD BUSINESS CENTER ofis 4/3, AZ1014

**Elektron poçt ünvanı:** samahmudova@gmail.com

**Ölçü vahidi:** manat

| **Aktivlər** | **2022** | **2021** |
|---|---|---|
| Torpaq, tikili və avadanlıqlar | 5 518,32 | 854,52 |
| Mallar və ehtiyatlar | 0,00 | 0,00 |
| Debitor borclar | 244 004,63 | 147 935,00 |
| Pul vəsaitləri | 371 578,37 | 247 208,97 |
| Digər aktivlər | 20 934,74 | 1 350,01 |
| **Cəmi aktivlər** | **642 036,06** | **397 348,50** |
| | | |
| **Kapital və öhdəliklər** | | |
| Nizamnamə Kapitalı | 2 000,00 | 10,00 |
| Keçmiş illər üzrə mənfəət | 320 480,24 | 158 143,06 |
| Mənfəət/zərər | 0,00 | 0,00 |
| Cəmi Kapital | **322 480,24** | **158 153,06** |
| Alınmış avanslar | 460,00 | 13 570,00 |
| Kreditor borclar | 6 313,69 | 150,12 |
| Büdcə üzrə | 119 952,68 | 31 501,91 |
| Gələcək dövrün gəlirləri | 171 213,41 | 171 213,41 |
| Digər öhdəliklər | 21 616,04 | 22 760,00 |

**Əyyubov Arif Vahid oğlu**
**Cəmiyyətin direktoru**

M.Y.

**Mahmudova Səbinə Nəcəf qızı**
**Cəmiyyətin baş mühasibi**

## "BONAFİDE" Qapalı Səhmdar Cəmiyyətinin 2022-ci il üzrə İllik İdarəetmə Hesabatı

Bakı şəhəri 23.06.2023-cü il

"BONAFİDE" Qapalı Səhmdar Cəmiyyətinin (bundan sonra "**Emitent**") bu hesabatı "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 75.3.2-ci və Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 03 fevral 2016-cı il tarixli 10q nömrəli Qərarı ilə təsdiq edilmiş "Emitentin idarəetmə hesabatlarına dair tələblər haqqında Qaydaları"na uyğun tərtib edilmişdir.

1. Emitentin tam adı: "BONAFİDE" Qapalı Səhmdar Cəmiyyəti;
Emitentin qısaldılmış adı: "BONAFİDE" QSC;
Emitentin vergi ödəyicisinin eyniləşdirmə nömrəsi: 1305656601
Emitentin dövlət qeydiyyatının tarixi və nömrəsi: 03.09.2018, 1305656601.

2. Emitentin hüquqi ünvanı: AZ1014, Bakı şəhəri, Nəsimi rayonu, Səməd Vurğun, ev 83, World Busıness Center, Ofis 4/3.
Emitentin olduğu yer: AZ1014, Bakı şəhəri, Nəsimi rayonu, Səməd Vurğun, ev 83, World Busıness Center, Ofis 4/3.

3. Emitentin dövlət qeydiyyatına alınması tarixindən sonra Emitentin adında və təşkilati-hüquqi formasında aşağıdakı dəyişikliklər olmuşdur:

3.1. Emitent 03.09.2018-ci il tarixdə "MM AND PARTNERS" Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN: 1305656601) dövlət qeydiyyatına alınması ilə yaradılmış;

3.2. 02.10.2020-ci il tarixdə adı "BONAFİDE LEGAL SERVİCES" Məhdud Məsuliyyətli Cəmiyyətinə dəyişdirilmiş; və

3.3. 18.10.2021-ci il tarixdə adı və təşkilati-hüquqi forması dəyişdirilərək "BONAFİDE" Qapalı Səhmdar Cəmiyyətinə çevrilmişdir (yenidən təşkil olunmuşdur).

4. Emitentin 2022-ci il ərzində filial və nümayəndəlikləri yaradılmamış və ya ləğv edilməmişdir.

5. Emitentin 2022-ci il ərzində hər hansı törəmə cəmiyyəti yaradılmamış və ya ləğv edilməmişdir.

6. Emitent heç bir şirkətlər qrupuna daxil deyildir.

7. Emitent aşağıdakı fəaliyyət istiqamətləri ilə məşğul olur:

7.1. Hüquq xidmətlərinin göstərilməsi.

8. Emitent lisenziya üzrə hər hansı bir fəaliyyətlə məşğul olmur.

9. Emitent tərəfindən təklif edilən xidmətlər aşağıdakılardan ibarətdir:

9.1. Şirkətlərin təsis edilməsi və dövlət qeydiyyatına alınması;

9.2. Müxtəlif məhkəmə icraatında iddiaçı və ya cavabdehin maraqlarının müdafiəsi;

9.3. Müxtəlif sahələr üzrə müqavilələrin tərtib olunması, bağlanması, icrasına nəzarət edilməsi, müqaviləyə dəyişikliklər edilməsi və müqaviləyə xitam verilməsi ilə bağlı məsələlər üzrə hüquqi yardımın göstərilməsi;

"BONAFİDE" Qapalı Səhmdar Cəmiyyətinin Ümumi Yığıncağının 23 iyun 2023-cü il tarixli 6-06/2023 nömrəli qərarı ilə təsdiq edilmişdir.

(imza, möhür)
Əyyubov Arif Vahid oğlu
Ümumi Yığıncağının adından

**"BONAFİDE" Qapalı Səhmdar Cəmiyyətinin**

**2022-ci il üzrə**

**İllik İdarəetmə Hesabatı**

### *Məcmu mənfəət və zərər haqqında hesabat*
31 dekabr 2022-ci il tarixə

**VÖEN** 1 3 0 5 6 5 6 6 0 1

**Mühasibat uçotu subyektinin adı:** "BONAFİDE" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

**Sahə (fəaliyyət növü):** 69100-HÜQUQ SAHƏSİNDƏ FƏALİYYƏT

**Mülkiyyət növü:** Xüsusi mülkiyyət

**Ünvan:** Bakı şəhəri, Səməd Vurğun küçəsi, ev 83,WORLD BUSINESS CENTER ofis 4/3, AZ1014

**Elektron poçt ünvanı:** samahmudova@gmail.com

**Ölçü vahidi:** manat

| Göstəricilər | 2022 |
|---|---|
| İşlərin və xidmətlərin təqdim edilməsi | 709 564,76 |
| Digır gəliri | 0,00 |
| **Cəmi gəlirlər** | **709 564,76** |
| Əmək haqqı xərcləri | 190 841,01 |
| Sosial sığorta xərclər | 34 479,78 |
| Xammal və materialların dəyəri | 55,00 |
| İcarə xərcləri | 21 712,41 |
| Rabitə xərcləri | 130,47 |
| Bank xərcləri | 1 134,56 |
| Reklam xərcləri | 2 800,00 |
| Amortizasiya xərcləri | 2 364,99 |
| Sığorta xərcləri | 14 625,06 |
| **Cəmi xərclər** | **268 143,28** |
| **Vergidən əvvəl mənfəət** | **441 421,48** |
| **Vergi xərcləri** | **88 284,30** |
| **Xalis mənfəət** | **353 137,18** |

**Əyyubov Arif Vahid oğlu**
**Cəmiyyətin direktoru**

M.Y.

**Mahmudova Səbinə Nəcəf qızı**
**Cəmiyyətin baş mühasibi**

# İrəvan nə istəyir?

## *Yaxud Stivensonun yerinə düşən kəlamı*



***44 günlük Ikinci Qarabağ müharibəsindən sonra Azərbaycan qarşısında diz çökən işğalçı Ermənistan rəhbərliyi sonrakı müddət ərzində və dəfələrlə müxtəlif danışıqlar meydançalarında üçtərəfli görüşlərə qatılmaqla sülh sazişinin imzalanması yönündə müzakirələr aparıb, eləcə də rəsmi Bakının irəli sürdüyü təklifləri – xüsusilə, məlum 5 təklifin qəbul edildiyi bildirilib.***



Ancaq bütün bunlara rəğmən, vədləri ilə əməlləri növbəti dəfə üst-üstə düşməyən rəsmi İrəvan sülhün yaranması prosesinə əngəllər yaratmaqda davam edir, üstəlik, uduzan, kapitulyasiyaya uğrayan tərəf olmasına baxmayaraq, sözün əsl mənasında, siyasi həyasızlıqlarını sərgiləyir, həmçinin, təkliflərə öz qəbuledilməz maraqlarını tətbiq etməyə cəhdlər göstərir.

### Ərazi iddiaları davam edir...

Təbii ki, Bakı bütün bunlara səbir, təmkin nümayiş etdirsə də, bunun da bir həddinin, sonunun olduğunu gizlətmir və belə davam edəcəyi halda "Dəmir yumruq" və "Qusas" tandemlərinin yenidən və bu dəfə daha sərt şəkildə işə düşməsi ehtimalı günü-gündən artmağa başlayır. Belə ki, Ermənistan hələ də Azərbaycana qarşı ərazi iddialarından əl çəkmədiyini yalnız Rusiya sülhməramlıların müvəqqəti yerləşdikləri ərazilərdə - Qarabağda deyil, habelə işğal altında qalmaqda davam edən anklavlarımıza "sahib çıxmaq" məqsədlərini realizə etməyə çalışır.

Misal üçün, bu günün özündə belə, Ermənistan danışıqlar zamanı hər vəchlə inandırmağa çalışır ki, sən demə, Azərbaycanın Qazax rayonunun 7 kəndi, eləcə də Naxçıvan MR-nın Sədərək rayonunun Kərki kəndi, habelə Arazdəyən bunlarda qalmalıymış və s. (?!)

### İrəvan, Qərbi Zəngəzur, Göyçə və s. tarixi ərazilərimiz artıq iddia kimi qaldırıla və Ermənistana qarşı rəsmi şəkildə tələb qoyula bilər

Təbii ki, belə bir mühitdə suallar yaranır:






məgər bu ərazilər işğala qədər Azərbaycanın tərkibində deyildimi? Özü də öz tarixi torpaqlarından vəhşicəsinə qovulan, terrorlara məruz qalan 100%-lik azərbaycanlı əhalisi ilə birgə!

Yaxud, digər yanaşma edərək daha bir sualla çıxış edək: məgər Azərbaycan danışıqlar müddətində sovetlər ittifaqına daxil edilərkən ondan qoparılaraq Ermənistana verilmiş tarixi torpaqlarımız haqqında iddialar irəli sürübmü? Hələlik, bu haqda danışılmır, amma belə davam etsə, hadisələr də məhz həmin istiqamətdə inkişaf edəcək. İrəvan, Qərbi Zəngəzur, Göyçə və s. tarixi ərazilərimiz artıq iddia kimi qaldırıla və Ermənistana qarşı rəsmi şəkildə tələb qoyula bilər. Əslində, qaldırılır da. Hələlik, bəyanatlar vasitəsilə...

Bu isə Azərbaycan xalqının, dövlətinin tam maraqlarına cavab verən faktordur!

### İrəvan anlamalıdır ki...

Beləliklə, bu gün Ermənistan rəhbərliyinə yaxınlıqları ilə seçilən erməni siyasi ekspert dairələrinin əsas hədəflərindən biri də anklavlar məsələsidir. Onlar sual edirlər ki, nəyə görə anklav məsələləri görüşlər zamanı müzakirə edilmir? Ancaq fakt budur ki, Azərbaycan rəsmi səviyyədə daha əvvəllər bu məsələlər haqqında müzakirə açmayıb. Ancaq buna rəğmən, İrəvan anlamalıdır ki, danışıqlar masasına oturarkən, sülh müzakirələri aparılarkən sonrakı müddətə heç nə saxlanılmır! Və əgər dünən Kərki kəndi, ya da Qazaxın 7 kəndi haqqında heç nə deyilməyibsə, bu, o demək deyil ki, həmin ərazilərimiz haqqında unudulub.

### Proses Ermənistan tərəfindən qəsdən uzadılır

Artıq sərhədlərin demarkasiyası və delimitasiyası üçün vaxt çoxdan yetişib və xatırlatmaq yerinə düşərdi ki, elə Nikol Paşinyan da çıxışlarının birində bu məsələlərin sərhədlərin müəyyən edilməsi zamanı həll ediləcəyini bəyan etmişdi. Lakin onun bəyanatları ilə əməllərin üst-üstə düşməməsi göz önündədir. Proses Ermənistan tərəfindən qəsdən uzadılır.

Yeri gəlmişkən, məhv edilmiş orduları, ağır və iqtisadi böhranları yaşamalarına baxmayaraq, hakimiyyətə yaxın olan, ya da olmayan erməni siyasi ekspertləri ara-sıra ağılsız qoçun dirəyə buynuz atmasına bənzər fikirləri ilə də yadda qalırlar. Məsələn, Azərbaycanın öz ərazi bütövlüyünü tam şəkildə təmin, bərpa etməsi üçün başlatdığı prosesə davam edəcəyi halda, onlar "düşmən güclü müqavimətlə qarşılaşacaq və geriyə atılacaq" tipli psevdopatriotçu, yekəxana bəyanatlar səsləndirirlər. Həmin bəyanatları ki, 44 günlük Vətən müharibəsindən əvvəl də səsləndirirdilər, amma sonradan necə deyərlər, ənglləri əzildi, çənələri isə azad edilmiş torpaqlarımıza sürüldü.

Bəli, bu gün Azərbaycan səbir, təmkin nümayiş etdirir, danışıqlar masasında oturmaqla mövcud problemləri sülh yolu ilə həllinə səsləyir. Ermənistanda isə yenidən militarist notlar üzərindən anlaşılmaz səs-sədalar gəlməyə başlayır. Belə bir yerdə tanınmış Britaniya yazıçısı Stivensonun kəlamı yada düşür: "Kim ki, şüşəli evdə yaşayırsa, başqalarına tərəf daş atmamalıdır".

**Afət Tahirqızı**

## Ermənilər indi də Avropa İttifaqını hədəf alıb: "Riyakarlar, ikiüzlülər...."



***Erməni cəmiyyəti həm hiyləgər, həm də xəstə təxəyyül sahibidir. Hər gün biz bu iki faktı bütün çılpaqlığı ilə müşahidə edirik. Yuxarı eşelondan tutmuş ac-yalavac ermənisinə qədər hamısı bu xəstə təxəyyülün daşıyıcılarıdır. Təsəvvür edin: Hər gün Xankəndidən hər yerə gedib sərbəst şəkildə qayıdan bir ovuc ermənilər, sən demə, "blokadada" imişlər. Guya elə möhkəm "blokadadadırlar" ki, yeməyə ərzaqları belə çatmır. Amma Xankəndidə hər gün neçə toybüsat, kef məclisləri qurulur, marketlər gecələr də işıq saçır.***

Bu dəfə daha bu köhnəlmiş erməni yalanlarına Avropadakıların özləri də inanmırlar. Heç bunlara fikir verən də yoxdur. Elə bunları da yandıran budur. Xüsusilə Avropa İttifaqının prezidenti Şarl Mişelin son bəyanatında dedikləri bunlara əmmlicə "od qoyub". İndi erməni mediasında Avropa İttifaqı "topa tutulur", avropalı parlamentarilər riyakar və ikiüzlü adlandırılır. Bu yerdə deyiblər ki, "adımı sənə qoyum, səni də yana- yana qoyum".

Elə erməni politoloq Stepan Danielyan da öz Facebook səhifəsində avropalı siyasətçilər barədə sərt sözlər sərf edib. O yazır ki, avropalı siyasətçilər Xankəndindəki "30 min erməni uşağının" taleyi ilə maraqlanmırlar (30 min uşaq haradan peyda oldu??? Heç Xankəndidə 10-15 min erməni yaşaya, ya da yaşamaya): "Avropa İttifaqının 50 deputatı Saakaşvilinin səhhətindən narahatdır, onu müalicə üçün Avropaya göndərməyə çağırır, lakin Artsaxdakı ermənilərin həyatı və sağlamlığı ilə maraqlanmırlar. Bu gün Avropada qərar qəbul edənlərin sivilizasiya deqradasiyası və ikiüzlülüyü haqqında bilmək lazım olan hər şey budur. Yeri gəlmişkən, Ermənistanda, xüsusən də hüquq müdafiəçiləri arasında və bu cür mühitdə belə deqradasiya olunanlar çoxdur. Avropalı münafiqlər məni bağışlasınlar ki, onları erməni kuklaları ilə müqayisə edirəm, heç olmasa ölkələrini satmırlar".

Vəssalam, bu da erməni ictimai düşüncəsinin hazırkı rentgeni. Çürük yalana sarılıb nəsə möcüzə umurlar. Artıq avropadakıların özləri belə, bu yalanlara qapını bağlayıblarsa demək ki, erməni hiyləgərliyi süqutunun pis dövrünü yaşayır, başqa heç nə!

**Mətləb Salahov**

# Mediamızda əsaslı islahatların vaxtıdır: nəyi, nə üçün və necə dəyişməli?



***Müasir media tendensiyaları bu sahədə çox mürəkkəb və ziddiyyətli vəziyyət yaradıb. Klassik, peşəkar media ilə yanaşı ortalıqda daha bir "media" var- sosial media adlandırılan sosial şəbəkə səhifə və kanalları, saytlar, bloqlar və sair internet resursları. İkincilər həqiqi media sayılmasa da, kütlə onları media kimi qəbul edir. Çünki artıq kütləvi informasiya vasitələri formasına keçiblər. Onlardan bəzilərinin auditoriyası peşəkar media resurslarından çoxdur. Nəticədə informasiya məkanında qarışıqlıq, nəzarətsizlik və nizamsızlıq hökm sürür. Ortalıqda bir hadisə və ya proses haqda tam antipod xəbərlər dolaşır- bir tərəfdə məsələ başqa cür verilir, digər tərəfdə başqa cür. Beləliklə, oxucu, tamaşaçı, dinləyici auditoriyası çaş-baş qalır- hansının doğru olduğunu təyin edə bilmir.***




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.***






İnternet medianın inkişafı və bu sahədə ictimai və dövlət nəzarətinin olmaması çox ciddi problemlər yaradır. Biz bunu müxtəlif vaxtlarda və kritik situyasiyalarda dəfələrlə görürük. Belə vəziyyətlərdə dezinformasiyalar, qərəzli, böhtan xarakterli materiallar çoxalır.

Artıq minlərlə sayt, sosial şəbəkə səhifələri və kanalları açılıb və bunun adı media qoyulub. Bundan ən çox bəhrələnənlər isə xalqımıza və ölkəmizə zərər vuran xarici və daxili qüvvələrdir. Hətta reket jurnalistlər bu sosial media məkanında qanunsuz biznes qururlar. Bir sira xarici dairələr isə bu sosial media məkanında zərərli təbliğat aparır, dezinformasiya yayır, təxribat təşkil edirlər. Lakin adi izləyicilər onların funksiyasını və məqsədlərini bilmirlər və onları media hesab edirlər.

Getdikcə internet məkanında bu "media"nın üstünlüyü ələ alması peşəkar medianı kölgədə qoyur. Üstəlik, indi hamı bir növ jurnalist olub- hərənin əlində kamera və diktofona malik internetə bağlı smartfon var- istənilən hadisəni dərhal çəkib şəbəkəyə yerləşdirirlər və peşəkar media tərpənənədək əhali bu hadisəni görür. Artıq ciddi medianın hazırladığı xəbər materialı daldan atılan daşa bənzəyir.

Hazırda jurnalistikanın janrlarından demək olar ki, yalnız xəbər janrı qalıb. Mətbuat təkcə xəbər demək deyil, xəbər mətbuatın yalnız bir janrı, bir tərəfidir. Analitik yazılar, araşdırmalar, müsahibələr hazırlanmalı, müxtəlif problemlər işıqlandırılmalıdır. İnsanlar da artıq xəbər oxumaqdan bezib. Pamflet, felyeton, esse, oçerk, parodiya kimi publisistik yazılara nadir hallarda rast gəlinir. Maarifləndirici, ifşaedici karikaturalardan istifadə haqda heç danışmağa dəyməz.



Beləliklə, peşəkar medianın sıradan çıxmaması, nüfuz və təsirini saxlaması üçün ciddi işlərə başlamaq vaxtıdır. Burada həm dövlətin, həm də cəmiyyətin rolu vacibdir. Klassik media öz problemlərini öyrənməli, müzakirə etməli və həlli üçün çalışmalıdır. Bu işin başında da müvafiq dövlət orqanı olan MEDİA dayanmalıdır, bundan başqa qeyri-hökumət təşkilatı olan Mətbuat Şurası, həmçinin digər jurnalist təşkilatları, media orqanlarının özü prosesdə fəal iştirak etməlidir.

İlk növbədə klassik medianın çatışmazlıqlarını bilməliyik. Əvvəla, biz hər zaman dünya standartları, peşəkarlıq və sairə məsələləri müzakirə edirik, özümüzü bu prinsiplərə uyğunlaşdırmaq istəyirik. Amma bunu real planda tətbiq edə bilmirik. Bu halda qlobal media məkanına çıxmaq mümkün deyil.

Bizim mediada sosial problemlərə çox az toxunulur, onun əvəzinə şou xarakterli materiallar çox işlənilir. Hesab edilir ki, belə materiallar daha çox oxucu, tamaşaçı, dinləyici gətirir. Halbuki, maraqlı təhlillər, elmi məqalələr, sosial araşdırmalar ortaya qoyulmalıdır ki, daimi oxucu kütləsina sahib olsun. Beləliklə, onların reklam bazarı da formalaşacaq. Bütün bunlar olmadan media subyektləri özünü maliyyələşdirə bilmir. Özünü maliyyələşdirə bilməyən media heç zaman peşəkar, azad ola bilməz. Dünyada, ölkədə ictimaiyyət arasında nüfuz qazana bilməz.

Azərbaycan mediası həm də informasiya müharibəsi aparır. Dünya arenasına çıxmaq, Azərbaycan həqiqətlərini çatdırmaq üçün çoxsaylı peşəkar işçi qüvvəsi olan peşəkar media qrurlar- tərkibində saytlar, qəzetlər, informasiya agentlikləri olan resurslar lazımdır. Yüzlərlə zəif, kiçik saytlardansa, iri media qrupları formalaşarsa, artıq informasiya məkanının mütəşəkkilliyi və effektivliyi daha yüksək səviyyədə olar. Bu təmərküzləşmə prosesinə əsasən bir neçə media orqanı birləşərək, böyük media holdinqləri formalaşmalıdır. Kiçik saytların işçi qüvvəsi saxlaya bilməməsi və ya 1-2 nəfərlə ortaya ciddi media qoyması mümkün deyil. Onun xaricdə və ölkənin regionlarında müxbir postları yoxdur. Bu kimi çatışmazlıqlarla biz dünya mediasına çıxa bilmərik.

Media kütlələrə psixoloji təsir silahıdır. Bu silah bizim (yəni, dövlətin, cəmiyyətin) əlimizdə deyil. Çünki insanlar media orqanlarında dolğun, ciddi , tərəfsiz məlumat ala bilməyəndə artıq sosial şəbəkələrə üz tuturlar. Hadisənin əslini, reallığı sosial şəbəkələrdə axtarırlar. Nəticədə ölkə mediası ictimaiyyətə təsir funksiyasını itirir. Bu məsələnin müəyyən edilmiş mexanizmi olmalıdır. Qızıl ortanı tutmaq lazımdır. Senzura olmur, mətbuata tam azadlıq verilir və digər tərəfdən qanunsuzluq meyllərinin qarşısı alınır. İnsanların bir-birini təhqir etməsi, şər-böhtan atması, təxribat xarakterli məlumatların yayılması məsələlərinə ciddi nəzarət edilməlidir.

Əsas problemlərdə biri də, jurnalistlərin peşəkarlığının zəif olmasıdır. Bununla bağlı ilk vaxtlarda media orqanlarına maliyyə yardımı lazımdır. Hər hansı bir media özünü tam doğruldanadək ona edilən yardımlarla, peşəkarları ətrafına toplamalı və onları əlində saxlamağı bacarmalıdır. Peşəkarlıqdan kənar, intellektual bazası olmayan ucuz işçi qüvvəsinin toplanması mediada özünü doğrultmayan, yanlış və effektsiz materialların yayımlanmasına səbəb olur. İntellektual səviyyəsi zəif olan, müəyyən təcrübə bazası olmayan şəxsin cəmiyyət qarşısında çıxış etməsi düzgün deyil.

Bütün bu məsələlər kompleks şəklində həll edilməlidir. Məsələnin bir tərəfini həll edib, digər tərəfini boş buraxdıqda bu problemlər ortadan qalxmayacaq. Elə bir şərait yaradılmalıdır ki, həm dövlətin çatdırmaq istədiyi məlumatlar, həm də ortaya qoyulan sosial problemlər böyük kütləyə çata bilsin. Vətəndaşlar mediaya inansın, onu dinləsin, oxusun, izləsin. Yalnız bu halda media dövlət və cəmiyyət arasında əlaqəçi funksiyasını yerinə yetirə bilər. Məlumatlandırma və maarifləndirmə işində öz rolunun öhdəsindən layiqincə gələr.

Ümumiləşdirsək, hazırda mediamız özünü maliyyələşdirə bilmir, maddi-texniki təminatı, peşəkar kadr bazası zəifdir. Bu tip media ictimaiyyət arasında nüfuz qazana bilməz, ancaq şou auditoriya toplaya bilər. Bu baxımdan son zamanlar Medianın İnkişafı Agentliyinin bu sahədə həyata keçirdiyi tədbirlər təqdirəlayiqdir. MEDİA jurnalistlər üçün mütamadi təlimlər, təkmilləşmə kursları təşkil edir, media orqanlarının layihələrini maliyyələşdirir, onların bir çoxuna maddi yardımlar edir ki, mediamız güclənsin. Artıq son illərdə aparılmış işlər bu sahədə müsbət tendensiyaların əsasını qoyub və xeyli dəyişiklik baş verib. Bu işlər davam etdirildikdə, tezliklə media sahəsində sağlam və təhülkəsiz mühitin yarandığını görə bilərik.

Yeni qəbul olunmuş Media haqda Qanun da bu istiqamətdə fundamentlan islahatların aparılması məqsədilə qəbul olunub. Dövlət peşəkar medianı sosial mediadan ayırmaqla onun daha üstün olduğunu cəmiyyətə göstərir. Media subyektlərinin və jurnalistlərin vahid reyestrinin yaradılması da buna xidmət edir. Jurnalistlərin sosial vəziyyətinin yaxşılaşdırılması, onların peşəkar iş mühitində çalışması və əmək hüquqlarının qorunması, media subyektlərinin zamanla ayaqlaşa bilməsi üçün maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində aparılan işlər təqdirəlayiqdir. Şübhə yoxdur ki, aparılan bu islahatlar media sahəsində vəziyyəti sağlamlaşdıracaq, Azərbaycan mediasının dünya media məkanına inteqrasiyası üçün lazımi şərait yaradacaq.

***Elçin Bayramlı***

ANALİZ

SON SƏHİFƏ
SƏS
21 iyul
2023-cü il

# "Bizdə bu düstur tamamilə kobud şəkildə pozulub"

*"İlk növbədə qeyd edim ki, təhsil sahəsində islahat proqramlarının əsas məqsədi məktəbəqədər, orta, ali təhsildən sonrakı peşə və ona uyğun əlavə təhsil pillələrində toplanmış potensialı saxlamaq və inkişaf etdirmək, təhsil sistemini tənzimləyən müvafiq normativ hüquqi bazanı yaratmaq, cəmiyyətin Azərbaycan Respublikasının Konstitusiyasında, Təhsil Qanununda təsbit olunmuş tələbləri, siyasi, iqtisadi və sosial həyatın demokratikləşməsinə əsaslanan dövlət siyasətini həyata keçirməkdən ibarətdir. Amma etiraf edək ki, bir çox hallarda bu mümkün olmur.*



**EKSPERT AYDINLIQ GƏTİRDİ**



Bunun əsas səbəbi təhsil alanların həddsiz dərəcədə yüklənməsidir". Bu sözləri SİA-ya açıqlamasında təhsil üzrə ekspert Kamran Əsədov deyib.

Onun sözlərinə görə, tədris proqramında müvafiq elm sahəsinin nailiyyətləri şagirdlərin yaş, qavrama səviyyəsinə uyğun öz əksini tapmalıdır. Lakin bu, heç də dərslikləri nəzəri məlumatlarla yükləməyə əsas vermir. O elmi materiallar faydalı hesab olunur ki, bunlar bilavasitə şagirdlərdə idraki bacarıqların, xüsusilə də tətbiqi bacarıqların formalaşmasına xidmət edir. Xüsusilə, heç kəsdən kömək almadan tapşırığı özü həll etməsi onlarda məsuliyyət duyğusunun formalaşmasına yardım edir. Eyni zamanda, yeni məlumatlar öyrənən uşaqda beynin iş görmə qabiliyyəti artır və özü özünün düşüncə tərzini formalaşdırır. Buna görə də uşağın dərs hazırlama şəraiti öz istəyinə uyğun olmalıdır.

Amma təəssüflər olsun ki, hal-hazırda ibtidai siniflərdə proqramın ağırlığı və çətinliyi şagirdlərin normadan artıq yüklənməsinə gətirib çıxarır. Dərsliklər o qədər çətindir ki, heç biz özümüz başa düşmürük, o ki qaldı uşaqlar. Ev tapşırıqları həddindən artıq çox olur. Həm uşaq yorulur, həm də biz. Əvvəllər uşağın dərslərinə köməklik edirdik, lakin indi proqram çox çətindir.

Əgər bir mövzu 45 dəqiqə ərzində şagirdə öyrədilirsə, həmin mövzu elə sinifdə şagird tərəfindən mənimsənilməlidir. Şagirdin mənimsəməsi zəifdirsə, yaxud daha artıq və yüksək nəticə göstərmiş olarsa, məhz o şagirdləri nəzərə alaraq evdə boş vaxtları doldurmaq üçün valideynin də iradəsinə uyğun olaraq evə tapşırıq verilə bilər. Yüksək nəticə göstərən şagirdə əlavə olaraq mövzuya aid olan daha sanballı, məntiqli və maraqlı suallar vermək olar. Zəif şagird mövzunu gec, yaxud orta səviyyədə mənimsəyirsə, belə halda uşaq müəllimlə qalıb əlavə hazırlaşa bilər.

Etiraf edim ki, ibtidai siniflərdə dərs proqramı əvvəlki illərdə olduğu kimi ağırdır. Üstəlik müəllimlərin uşaqları sinifdənxaric oxu materialları ilə yükləməsi uşaqları həddindən artıq yorur. Dərsliklər və əlavə oxu materialları və iş dəftərləri uşaqların beynini yormaqla yanaşı, çantanın ağırlığı onurğa sütunlarını da zədələyir. Ağır çantaları valideynlər belə daşımaqda çətinlik çəkirlər.

Vacib bir məqamı qeyd edim ki, beynəlxalq təhsil sistemində yaş xüsusiyyətinə görə standart düstur var. Dərsliklər hazırlanarkən 1 paraqrafda və 1 səhifədə yer alacaq söz, termin, şəkil və çalışmanın sayı uşağın yaşına uyğun götürülür. Bizdə bu düstur təmamilə kobud şəkildə pozulub.

İbtidai siniflərin tədris proqramı şagirdlərin yaş xüsusiyyətinə və yaş psixologiyasına uyğun deyil

Məsələn; 1 paraqrafda olan sözlərin, ifadələrin, şəkillərin sayı 6-7 yaşlı uşaqlar üçün deyil.

Bizdə 6-7 yaşında uşaqlar üçün nəzərdə tutulmuş kitabın həcmi və oradakı informasiya yükü beynəlxalq standartlarda 16-17 yaşlılar üçün nəzərdə tutulub.

Ən ciddi pozuntu 3-cü, 4-cü siniflər üçün yazılan kitablardır. 8-9 yaşlılar üçün nəzərdə tutulmuş kitablardakı informasiya yükü beynəlxalq standartlara görə 24-25 yaşlılar üçündür. 4-cü, 5-ci siniflərdəkilərin informasiya yükü, çalışmaların sayı və ağırlıq səviyyəsi şagirdlərin yaş xüsusiyyətinə və yaş psixologiyasına uyğun deyil.

Bu 1 həftə ərzində I sinif kitablarını analiz etmişəm və gəldiyim qənaət budur; belə ibtidai sinif kitabı olmaz! Biz bu kitablarla heç vaxt şəxsiyyət yetişdirə bilmərik. Kitablar Təhsil nazirliyinin sifarişilə hazırlanır. Nəşriyyatları və dərslik müəlliflərini yığıb tender elan edilir. Hərə öz kitabını yazır. Hətta ən pis kitab tenderdən keçir. Nazirlik sadəcə seçir. Əslində, bütün dünyada olduğu kimi özlərinin dərslik mərkəzi olmalıdır. 2 aya yazılan dərslik əlbəttə keyfiyyətli olmayacaq. Düşünürəm ki, Beynəlxalq standartların Azərbaycanda reallaşması artıq mümkün deyil.

Orta məktəbin funksiyası şəxsiyyət yetişdirməkdir, amma bu kitabların heç biri şəxsiyyət yetişdirmir. Mənasız informasiya yükü şagirdin yaş xüsusiyyətinə uyğun deyil. Ev tapşırıqları həddindən artıq çoxdur.

Əlbəttə ki, dərs yükü çox olduqda onların oyuna, əyləncəyə zamanı qalmır, ağır dərs yükünün altında əzilirlər. Mənəvi ehtiyaclarını ödəyə bilməyən uşaqlara isə dərs cəlbedici gəlmir, sadəcə, əzbərçilik edirlər".

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Alimlər: çılpaq yatmaq daha faydalıdır



ABŞ-ın Ümumi Tibb Elmləri Milli İnstitutundan tədqiqatçı Qabriela Pikardo çılpaq yatmağın insan orqanizminə yeni faydalarını müəyyənləşdirib. AZƏRTAC xarici mediaya istinadla xəbər verir ki, ABŞ Ümumi Tibbi Elmlər İnstitutunun tədqiqatçı komandasının apardığı araşdırma nəticəsində yatmazdan öncə bədəni üst geyimlərindən azad etməyin qanda xoşbəxtlik hormonunu artırdığı müəyyən edilib. Alimlərin fikrincə, çılpaq yatmaq nəinki fiziki, hətta emosional sağlamlığa müsbət təsir göstərir. Psixoloqlar çılpaq yatmağın müsbət təsirlərini insanın təkamül prosesindəki genetik yaddaşı ilə əlaqələndiriblər.

# "Qarabağ" xal ehtiyatımızı artırdı



***Futbol üzrə Çempionlar Liqasının 1-ci təsnifat mərhələsinin oyunlarından sonra UEFA əmsallar cədvəlini yenilənib. Belə ki, Azərbaycan təmsilçisi "Qarabağ" ötən gün Bakıdakı cavab görüşündə Cəbəllütariq "Linkoln"una 4:0 (ilk oyun - 2:1) hesabı ilə qalib gəlib və ölkənin aktivinə 0.250 xal yazdırıb.***

Beləliklə, ilk mərhələdə qazanılan 2 qələbə ilə cəmi 0,500 xal əldə olunub. Azərbaycan son 5 mövsümdəki əmsalları 14,750-yə çatıb. Lakin Azərbaycanın mövqeyi dəyişməyib. Ölkəmiz 29-cu pillədə qalıb.

28-ci sırada 15,500 xalla Slovakiyadır. 30-cu sırada yer alan Moldovanın isə 11,625 xalı var. Reytinq sıralamasına 88.928 əmsalla İngiltərə liderlik edir.

## BAŞSAĞLIĞI

Ədliyyə Nazirliyi Məhkəmə Ekspertiza Mərkəzinin əməkdaşı Almaz Bayramova iş yoldaşı Famil Əliyevə qardaşı

**Cəmil Əliyevin**

vaxtsız vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**